RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 106 (9273) 21 MAY 2023-cü il BAZAR

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



# Günnüt əməliyyatı: böyük zəfərə aparan yollardan biri



Məkrli xarici qüvvələrin səyləri nəticəsində Qarabağ münaqişəsinin sülh vasitəsilə çözülməsi müşkülə çevrilmişdi və süni yollarla uzadılırdı. Eyni zamanda Hayastanın ölkəmizə qarşı təxribatları münaqişənin güc yolu ilə həllindən başqa çıxış yolunun olmaması reallığını ortaya qoyurdu.

Arxalandıqları xarici qüvvələrin köməyinə güvənərək daha da azğınlaşan və Azərbaycana qarşı növbəti təxribata əl atan haylar 2016-cı ilin Aprel döyüşlərində Azərbaycan Ordusu tərəfindən layiqli cavablarını alaraq yerlərində otuzduruldular.

2016-cı il aprelin 2-də düşmən təxribatlarına cavab olaraq Azərbaycan Ordusu sürətli əks-hücum əməliyyatı ilə Füzuli, Cəbrayıl və Tərtər rayonlarının işğal altındakı ərazilərinin 2000 hektardan çox hissəsini azad etdi. Tərtər-Suqovuşan istiqamətində yolların nəzarətdə saxlanılması təmin olundu. Həmçinin minlərlə hektar ərazi ordumuzun tam nəzarətinə keçdi. Ordumuzun güclü zərbələri nəticəsində düşmənin 30-dək tankı, 25-dən çox artilleriya qurğusu və digər zirehli texnikası məhv edildi, 320 hərbçisi öldürüldü, 500-dən artıq döyüşçüsü yaralandı.

Dördgünlük Aprel döyüşləri zamanı işğalçı Hayastan Azərbaycan Ordusunun gücünü döyüş meydanında əyani şəkildə daddı.

2016-cı il Aprel döyüşlərindən sonra böyük zəfərə aparan qələbə yolunun ən mühüm addımlarından biri 2018-ci ildə Naxçıvanda atıldı.

2018-ci il may ayının 20-dən 27-nə qədər həyata keçirilən əməliyyatda Şərur rayonunun Günnüt kəndi və ətrafındakı mühüm strateji əhəmiyyətli yüksəkliklər işğaldan azad edildi.

Uğurlu Naxçıvan əməliyyatı sayəsində ümumilikdə 11 min hektardan çox ərazi və Şərur rayonunun Günnüt kəndi, Ağbulaq yüksəkliyi, Qızılqaya dağı, Qaraqaya dağı düşməndən azad edildi. Dərələyəz mahalının Arpa kəndi isə Azərbaycan Ordusunun nəzarəti altına keçdi. Əməliyyat ordumuza İrəvan-Yeğeqnadzor-Gorus avtomobil yoluna nəzarət etməyə imkan verdi.

"Biz çox önəmli strateji yüksəklikləri Ermənistan ordusundan təmizlədik, o yüksəklikləri əldə etdik. Bu yüksəkliklər imkan verdi ki, biz artıq strateji kommunikasiyalara tam nəzarət edirik və Ermənistandan Dağlıq Qarabağa gedən yola da nəzarət edirik", - deyə 2021-ci il mayın 10-da Naxçıvan Muxtar Respublikasına səfəri çərçivəsində Azərbaycan Televiziyasına müsahibəsində Prezident İlham Əliyev bildirdi ki, İkinci Qarabağ müharibəsində bu yola nəzarət imkanlarımız bizə bir çox informasiyanın əldə edilməsində kömək göstərdi.

→ 3

## Ulu Öndər Heydər Əliyev səhiyyə sisteminin dünya standartları səviyyəsində qurulması işini daim diqqətdə saxlamışdır

### "Bakı Ürək Günləri" VIII Beynəlxalq Konqresinin iştirakçılarına

Hörmətli konqres iştirakçıları!

Sizi - Azərbaycan kardioloqlarını, kardiocərrahlarını və müxtəlif ölkələrdən paytaxtımıza gəlmiş alimləri "Bakı Ürək Günləri" VIII Beynəlxalq Konqresinin öz işinə başlaması münasibətilə səmimi-qəlbdən salamlayır, gələcək fəaliyyətinizdə hər birinizə müvəffəqiyyətlər arzulayıram.

Builki konqresin xalqımızın Ümummilli Lideri Heydər Əliyevin 100 illik yubileyinə həsr olunması rəmzi məna daşıyır. Ulu Öndər ölkəmizdə səhiyyə sisteminin təkmilləşdirilməsi və dünya standartları səviyyəsində qurulması işini daim diqqətdə saxlamışdır.

Azərbaycan səhiyyəsinin ötən dövr ərzində keçdiyi yol təbabətin sürətlə irəliləyən sahələrindən biri kimi kardiologiya elminin mühüm nailiyyətlərinin tətbiqinə, ürək xəstəliklərinin müasir terapevtik və cərrahi üsullarla müalicəsinin təmin olunmasına əlverişli şərait yaratmışdır. Nüfuzlu kardioloji mərkəzlərdə gerçəkləşdirilən ən çətin əməliyyatların hazırda yeni nəsil həkimlərimizin fəaliyyəti sayəsində uğurla keçirilməsi qürur hissi doğurur.

Ənənəvi "Bakı Ürək Günləri" Beynəlxalq Konqresinin kardiologiya və ürək-damar cərrahiyyəsinin inkişafında özünəməxsus rolu vardır. Bu sahə ilə bağlı geniş fikir mübadiləsinin aparılacağı tədbirinizdə dünyanın mötəbər tibb qurumlarını təmsil edən görkəmli kardioloq alim və cərrahların iştirakı konqresinizin qazandığı yüksək etimadın göstəricisidir. Beynəlxalq təcrübədən qarşılıqlı surətdə lazımınca faydalanmaqla kardiologiyanın aktual məsələlərinin həllinə yönəlmiş birgə səylərinizin səmərəli olacağına inanıram.

Ümidvaram ki, böyük elmi və elmi-praktiki əhəmiyyətə malik bu konqres azərbaycanlı mütəxəssislərin öz xarici həmkarları ilə əlaqələrini daha da möhkəmləndirəcək, yüksəkixtisaslı kadr hazırlığına, kardiologiyanın, ürək-damar cərrahiyyəsinin və ümumilikdə tibb elminin inkişafına töhfələr verəcəkdir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 20 may 2023-cü il*

## Azərbaycan mövqelərini möhkəmləndirmək üçün bütün zəruri addımları atır

Müzakirələr Moskvada imzalanmış üçtərəfli Bəyanata əsaslanmalıdır və bu mənada Rusiya öhdəliyini yerinə yetirməlidir. Mayın 19-da baş tutmuş təmaslardan da görünür ki, razılaşdırılmış məsələ yoxdur. Yalnız kommunikasiya xətlərinin açılması istiqamətində müəyyən addımlar atılsa da, bu da real deyil. Sülh müqaviləsinin imzalanması ilə bağlı isə, ümumiyyətlə, heç bir yenilik yoxdur.

Cəmiyyət siyasi proseslərə nə vaxt hazır olur ki?! Bunu tənzimləmək siyasi liderlərin işidir. Vaxtı gələndə cəmiyyət dəyişiklikləri real vəziyyət kimi qəbul edir. Əgər cəmiyyətin öhdəsinə buraxılsa, problem heç 100 ilə də həllini tapmaz. Lakin burada ötən hər gün Hayastan üçün daha təhlükəlidir. Nəzərə almaq lazımdır ki, Azərbaycan bu müddətdə bölgədə mövqelərinin möhkəmlənməsi üçün bütün zəruri addımları atır.

→ 5

## "Sülh" istəyən Hayastan niyə silahlanır?

### Real faktlar Ermənistanın regionda təhlükəsizliyin təmin olunmasında maraqlı olmadığını göstərir

Mayın 19-da sülh müqaviləsi imzalamaq istəyini ifadə edən Ermənistanın Rusiya sülhməramlılarının dəstəyi ilə növbəti daşımalar həyata keçirdiyi ilə bağlı videogörüntülər yayılıb. Kadrlarda qeyri-qanuni erməni silahlı birləşmələrinin sülhməramlıların zirehli texnikasının müşayiəti altında Xankəndi-Kərkicahan-Xəlfəli yolu ilə növbəti dəfə hərbi yük daşıdığı aydın görünür. Yəni bu, bir daha göstərir ki, Ermənistan Azərbaycanla sülh müqaviləsi imzalamaq niyyətində deyil. Ümumiyyətlə, bu ölkə heç Cənubi Qafqazda sabitliyin olmasının tərəfdarı deyil. Amma bu, hər şeydən öncə Hayastanın özü üçün ağır nəticələr verə bilər. Təhlükəsizliyin təmin olunması, kommunikasiyaların inkişafı region dövlətlər üçün vacibdir, bunun faydası olar. Bəzi dövlətlər Cənubi Qafqazda sabitliyin bərpasında maraqlı olmasa da, region dövlətləri üçün bu çox əhəmiyyətlidir.

→ 5

## ABŞ Azərbaycanla Ermənistan arasında dayanıqlı və ədalətli sülhü dəstəkləməyə davam edəcəkdir

### Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə



Hörmətli cənab Prezident.

Amerika xalqı adından Sizi və Azərbaycan xalqını 28 May - Müstəqillik Günü münasibətilə təbrik edirəm.

Azərbaycanla Birləşmiş Ştatlar arasındakı tərəfdaşlıq regionda inkişafı təmin edib. Biz birlikdə terrorizmlə mübarizə aparır, narkotiklərin qanunsuz dövriyyəsinə qarşı tədbirlər görür və kütləvi qırğın silahlarının yayılmasının qarşısını alırıq. Xüsusən Rusiyanın Ukrayna xalqına qarşı qəddar müharibəsi dövründə Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində biz bir yerdə olmuşuq. Birləşmiş Ştatlar Cənubi Qafqazda gələcək nəsillər üçün təhlükəsizlik və inkişafı təşviq edəcək, Azərbaycanla Ermənistan arasında dayanıqlı və ədalətli sülhü dəstəkləməyə davam edəcəkdir.

Qarşıdan gələn ildə təhlükəsizlik və iqtisadi əməkdaşlığımızın dərinləşdirilməsi də daxil olmaqla, tərəfdaşlığımızı daha da gücləndirməyi həvəslə gözləyirəm. Sizə sevincli və firavan Müstəqillik Günü arzu edirəm.

Səmimiyyətlə,

***Cozef R.BAYDEN,***
***Amerika Birləşmiş Ştatlarının Prezidenti***

## Azərbaycan Respublikası vətəndaşlarının 2023-cü il iyulun 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 26-cı bəndini rəhbər tutaraq, "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 12.3-cü və 40.1-ci maddələrinə əsasən və Azərbaycan Respublikasının Silahlı Qüvvələrini şəxsi heyətlə komplektləşdirmək məqsədilə **qərara alıram:**

1. 2005-ci ildə doğulmuş və çağırış gününədək (həmin gün də daxil olmaqla) 18 yaşı tamam olmuş, habelə 1988-2004-cü illərdə doğulmuş, yaşı 35-dək olan, Azərbaycan Respublikasının Silahlı Qüvvələrində müddətli həqiqi hərbi xidmət keçməmiş, müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət hüququ olmayan və ya müddətli həqiqi hərbi xidmətə çağırışdan azad edilməmiş Azərbaycan Respublikası vətəndaşları 2023-cü il iyulun 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılsınlar.

2. "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 38.1.1-ci maddəsində nəzərdə tutulmuş xidmət müddətini keçmiş müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları 2023-cü il iyulun 1-dən 30-dək ehtiyata buraxılsınlar.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamın icrası üçün qanunvericilikdə nəzərdə tutulmuş tədbirləri görsün.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 20 may 2023-cü il*

## Türkiyə güclənir, müttəfiqlərini də gücləndirir

**Türkiyənin ən böyük aviasiya, kosmos və texnologiya festivalı olan "TEKNOFEST" bu il də İstanbulda uğurla təşkil olunmuşdu.**

Bu tədbir qardaş ölkənin Avrasiyanın ticarət, enerji, nəqliyyat, siyasi mərkəzinə çevrildiyini, gündən-günə beynəlxalq önəminin daha da artdığını göstərdi. Malik olduğu güclü sənayenin Türkiyəni gücləndirdiyi kimi bu qüdrətli dövlətin müttəfiqlərinin, o cümlədən strateji müttəfiqi olan Azərbaycanın da gücünə güc qatdığını nümayiş etdirdi.

Azərbaycan Prezidenti İlham Əliyev bu məqamı çıxışında xüsusi vurğuladı: "Türk Ordusu bu gün dünya çapında ən öndə olan orduların sırasındadır. Türkiyənin müdafiə sənayesi bu gün bütün dünya tərəfindən qəbul edilir. Ən inkişaf etmiş, ən çağdaş, ən modern müdafiə sənayesi həm Türkiyəni, həm bizi gücləndirir və uzun illər bundan sonra Türkiyənin təhlükəsizliyini təmin edəcəkdir".

TEKNOFEST AEROSPACE AND TECHNOLOGY FESTIVAL

→ 5

## Möhtəşəm mübarizə



→ 8

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə



Zati-aliləri!

Ölkənizin milli bayramı - Müstəqillik Günü münasibətilə Sizə və Azərbaycan xalqına ən səmimi təbriklərimi çatdırıram.

Mən çətinliklərin yaşandığı indiki dövrdə ölkələrimiz arasında mehriban dostluğun və güclü tərəfdaşlığın davam edəcəyinə ümidvar olduğumu bildirmək istərdim.

*Hörmətlə,*

***Əlahəzrət III ÇARLZ,***
***Böyük Britaniya və Şimali İrlandiyanın Kralı***

❖ ❖ ❖

Hörmətli cənab Prezident!

Müstəqillik Günü münasibətilə Sizi və Azərbaycan xalqını ürəkdən təbrik edirəm.

Bu ilin fevral və mart aylarında Almaniyaya səfərləriniz ölkələrimiz arasında sıx dostluq münasibətlərini daha da gücləndirdi. Almaniya həmçinin Azərbaycan ilə Avropa İttifaqı arasında tərəfdaşlıq münasibətlərini dəstəkləyir.

Sizi əmin edə bilərəm ki, Almaniya bundan sonra da ölkənizin modernləşmə səylərində, demokratiyanın və qanunun aliliyinin möhkəmləndirilməsində etibarlı tərəfdaş olacaqdır. Çiçəklənən, müasirləşən cəmiyyətin dinc və sabit mühitə ehtiyacı vardır. Buna görə də mən qəti şəkildə əminəm ki, Azərbaycan, eləcə də bütün bölgə regional münaqişələrin həllindən faydalanacaqdır. Biz Avropa İttifaqının üzvü kimi buna fəal töhfə vermək istəyirik.

Sizə və Azərbaycan xalqına ən xoş arzularımı ifadə edir, sülh, rifah və firavan gələcək diləyirəm.

*Hörmətlə,*

***Frank-Valter ŞTAYNMAYER,***
***Almaniya Federativ Respublikasının Prezidenti***

❖ ❖ ❖

Möhtərəm İlham Heydər oğlu!

Əziz qardaşım!

Sizi və qardaş Azərbaycan xalqını ölkənizin milli bayramı - Müstəqillik Günü münasibətilə Özbəkistan xalqı adından və şəxsən öz adımdan səmimi-qəlbdən təbrik edirəm.

Sizin uzaqgörən daxili və xarici siyasətiniz, iqtisadi və sosial sahələrdə həyata keçirdiyiniz sürətli islahatlar bu gün layiqli nəticələrini verməkdədir, Azərbaycanın beynəlxalq aləmdə mövqeyi və nüfuzu durmadan artmaqdadır. Bu xüsusda regionda sülhün və davamlı inkişafın təmin edilməsi istiqamətində həyata keçirdiyiniz ədalətli və qətiyyətli səylərinizi tamamilə dəstəklədiyimizi bir daha qeyd etmək istərdim. Xüsusilə son illər ərzində Sizinlə aramızda yaranan və qardaş xalqlarımızın ümumi arzularının ifadəsi olan sıx qardaşlıq əlaqələri, açıq və məhsuldar dialoqlarımız, ali və yüksək səviyyələrdə səfərlərin mübadiləsi nəticəsində strateji tərəfdaşlığımız tamamilə yeni səviyyəyə yüksəlmişdir.

Hörmətli İlham Heydər oğlu!

Əminəm ki, yaxın gələcəkdə Azərbaycana səfərimiz çoxşaxəli və uzunmüddətli əlaqələrimizdə yeni tarixi dövrün başlanğıcı olacaq, əməkdaşlığımızı arzuladığımız və mövcud imkanlarımıza uyğun şəkildə daha yüksək səviyyəyə çatdıracaq.

Fürsətdən istifadə edərək ölkənizin həyatında bu unudulmaz və sevincli gündə Zati-alinizə möhkəm cansağlığı, ailə səadəti və Vətəninizin inkişafı naminə həyata keçirdiyiniz misilsiz fəaliyyətinizdə böyük uğurlar, qardaş Azərbaycan xalqına əmin-amanlıq, davamlı inkişaf və firavanlıq arzulayıram.

*Səmimiyyət və hörmətlə,*

***Şavkat MİRZİYOYEV,***
***Özbəkistan Respublikasının Prezidenti***

❖ ❖ ❖

Hörmətli cənab Prezident!

Azərbaycanın milli bayramı - Müstəqillik Günü münasibətilə Zati-alinizə səmimi təbriklərimi çatdırıram.

Sizə xoşbəxtlik və xalqınıza firavanlıq arzulayıram.

*Hörmətlə,*

***Əlahəzrət NARUHİTO,***
***Yaponiyanın İmperatoru***

❖ ❖ ❖

Zati-aliləri!

Mayın 28-də qeyd olunan Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə Sizi və Azərbaycan xalqını İndoneziya Respublikası adından və şəxsən öz adımdan ürəkdən təbrik edirəm.

Ümidvaram ki, xalqlarımız arasındakı mövcud dostluq əlaqələri daim inkişaf edərək müvafiq regionlarımızda sülhün və firavanlığın təşviqinə töhfə verəcəkdir.

Zati-aliləri, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

*Hörmətlə,*

***Coko VİDODO,***
***İndoneziya Respublikasının Prezidenti***

❖ ❖ ❖

Əs-səlamu aleykum və rəhmətullahi və bərəkətuhu.

Hörmətli cənab Prezident!

Azərbaycan Respublikasının milli bayramı - Müstəqillik Günü münasibətilə şəxsən öz adımdan, İraq Respublikasının hökuməti və xalqı adından Sizə səmimi təbriklərimi və ən xoş arzularımı çatdırıram.

Fürsətdən istifadə edib dost ölkələrimiz və xalqlarımız arasında əməkdaşlıq əlaqələrinin dərinliyini ifadə edərək Azərbaycan hökumətinə və xalqına firavanlıq və tərəqqi diləyirəm.

*Ən dərin hörmət və ehtiramla,*

***Məhəmməd Şiya ƏS-SUDANİ,***
***İraq Respublikasının Baş naziri***

❖ ❖ ❖

Zati-aliləri, əziz qardaşım!

Ölkənizin milli bayramı - Müstəqillik Günü münasibətilə Sizə ən səmimi təbriklərimi çatdırmaqdan məmnunluq duyur, dost Azərbaycan xalqına daha çox tərəqqi və firavanlıq arzulayıram.

Dost xalqlarımızın mənafeyi naminə ölkələrimiz arasında mövcud əməkdaşlıq əlaqələrini gücləndirmək və inkişaf etdirmək üçün səylərimizi davam etdirməkdə maraqlı olduğumuzu Zati-alinizə bir daha ifadə edirəm.

Zati-aliləri, əziz qardaşım, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

***Məhəmməd vələd əş-Şeyx ƏL-ĞƏZVANİ,***
***Mavritaniya İslam Respublikasının Prezidenti***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu!

"VTB Bank"ın İdarə Heyəti, kollektivi adından və şəxsən öz adımdan milli bayramınız - Müstəqillik Günü münasibətilə səmimi təbriklərimi qəbul edin.

Bu gün Sizin rəhbərliyinizlə Azərbaycan beynəlxalq nüfuzunu gücləndirərək hərtərəfli inkişaf yolunda inamla addımlayır. Rusiyada şəxsən Sizin ölkələrimiz arasında müttəfiqlik qarşılıqlı fəaliyyətinin daha da genişlənməsinə yönəlmiş böyük səylərinizi yüksək qiymətləndirirlər. Sizin ortaq tariximizin, insanlar, o cümlədən sahibkarlıq icmaları arasında yaranmış mehriban qonşuluq, dostluq əlaqələrinin qorunub saxlanılmasının vacibliyini yüksək dəyərləndirməyiniz iki ölkənin qarşılıqlı fəaliyyətinin möhkəmliyinin və strateji xarakterinin əyani təzahürləridir.

Hörmətli İlham Heydər oğlu, Sizə ali dövləti fəaliyyətinizdə yeni-yeni uğurlar, möhkəm cansağlığı, Azərbaycan xalqına isə səadət, firavanlıq və əmin-amanlıq arzu edirəm.

*Hörmətlə,*

***Andrey KOSTİN,***
***"VTB Bank" Publik Səhmdar Cəmiyyətinin prezidenti - İdarə Heyətinin sədri***

# "Bakı Ürək Günləri" VIII Beynəlxalq Konqresi keçirilir

**Ümummilli Lider Heydər Əliyevin 100 illiyinə həsr olunmuş "Bakı Ürək Günləri" VIII Beynəlxalq Konqresi öz işinə başlayıb.**








AZƏRTAC xəbər verir ki, Azərbaycan Ürək və Damar Cərrahiyyəsi Cəmiyyətinin (AÜDCC) təşkilatçılığı ilə mayın 19-dan 21-dək keçirilən konqresin açılış mərasimində Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, daha sonra Ulu Öndər Heydər Əliyevin əziz xatirəsi birdəqiqəlik sükutla yad edilib, həyat və fəaliyyətindən bəhs edən film nümayiş olunub.

Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Humanitar siyasət məsələləri şöbəsinin müdiri Fərəh Əliyeva Prezident İlham Əliyevin tədbir iştirakçılarına ünvanladığı məktubunu oxuyub.

Milli Məclisin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov keçirilən konfransın Azərbaycan tibbi və elmi üçün vacibliyini vurğulayaraq, ürək-damar xəstəlikləri kimi problemlərin ölkəmizdə aktuallığını, Prezident İlham Əliyevin konqres ilə bağlı məktubunun bu sahənin vacibliyinin ən bariz nümunəsi olduğunu qeyd edib. "Heydər Əliyevin peşəkar tibbi kadrların yetişdirilməsində rolundan danışıb: "Ulu Öndər ilk dəfə hakimiyyətə gəldiyi gündən tibbi kadrların yetişdirilməsinə böyük önəm verib. Mən də həmin şanslı gənclərdən olmuşam. Bu gün bir çox xəstəxanaların rəhbərliyində, tibb universitetinin qocaman müəllimləri arasında məhz Heydər Əliyev sayəsində xaricdə təhsil alan həkimlər var".

İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyətinin sədri Zaur Əliyev tibb elminin sürətlə inkişaf etdiyi dövrdə əcnəbi mütəxəssislər tərəfindən beynəlxalq təcrübənin öyrənilməsi və sözügedən sahədə yeniliklərin müzakirəsinin vacibliyini vurğulayıb: "Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) məlumatlarına əsasən ürək-damar xəstəlikləri dünyada ölümlə nəticələnən əsas xəstəliklər arasında birinci yerdədir. Ölkəmizdə də ölümlə nəticələnən xəstəliklər siyahısında qan dövranı sistemi xəstəlikləri ön sıralardadır. İcbari tibbi sığortanın tətbiqindən sonra bir çox cərrahi əməliyyatlar kimi ürək əməliyyatları da vətəndaşlar üçün daha əlçatan olub. Vətəndaşlarımız bu xidmətlərdən dövlət tibb müəssisələri ilə yanaşı, agentliyin müqavilə bağladığı özəl tibb müəssisələrində də yararlana bilirlər. Təkcə ötən il agentliyin müqavilə bağladığı özəl tibb müəssisələrində həm böyüklər, həm də uşaqlar üzərində 34 mindən çox ürək-damar əməliyyatı icra olunub. Cari ilin ilk 3 ayı üçün bu rəqəm 5 mini ötüb. Artıq bu ildən ilk dəfə olaraq TƏBİB-in tabeliyindəki rayon mərkəzi xəstəxanalarında da ürək-damar cərrahiyyəsi mümkün olacaq".

Səhiyyə nazirinin müavini Rasim İsmayılov çıxışında Ulu Öndər Heydər Əliyevin keçdiyi böyük, mənalı və şərəfli həyat yoluna nəzər salaraq bildirib ki, Azərbaycan dövlətçiliyinin, ordusunun, mədəniyyətinin, səhiyyə və təhsil sistemlərinin inkişafında Ümummilli Liderin rolu əvəzolunmazdır. Nazir müavini qeyd edib ki, möhkəm bünövrə üzərində formalaşmış Azərbaycan dövləti bu gün sürətli inkişaf dövrünü yaşayır. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən iqtisadi siyasət nəticəsində Azərbaycan bölgənin aparıcı dövlətinə çevrilib. Bu gün Ulu Öndər Heydər Əliyevin siyasi kursunun ölkəmizdə sədaqətlə davam etdirilməsi digər sahələr kimi, səhiyyə sistemində də uğurlara yeni vüsət verib. Heydər Əliyevin uzun illərə hesablanmış strategiyasının uğurla tətbiqi nəticəsində səhiyyə sistemini qarşıda daha böyük tərəqqi, nailiyyətlər gözləyir.

Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin icraçı direktoru Vüqar Qurbanov konqresin azərbaycanlı həkimlərə dünyanın qabaqcıl mütəxəssisləri ilə kardioloji elmlərdəki ən son nailiyyətləri müzakirə etmək imkanı yaratdığını deyib: "Ürək-damar xəstəlikləri dünyada ölümlə nəticələnən xəstəliklər arasında birinci yeri tutduğu üçün kardiologiya daim xüsusi diqqət tələb edir. Ümumdünya Səhiyyə Təşkilatının hesabatlarına görə, hər il dünyada 18 milyon insan ürək-damar xəstəlikləri səbəbindən dünyasını dəyişir.

Bütün dünyada olduğu kimi, ölkəmizdə də ürək-damar xəstəlikləri vaxtsız ölümlərin əsas səbəblərindəndir. TƏBİB olaraq ürək-damar xəstəliklərinin müayinə və müalicəsi xidmətlərinin təşkili və əlçatanlığı istiqamətində daim işlər aparırıq". O, kardioloji xəstəliklərlə bağlı yalnız paytaxt Bakıda deyil, respublikanın digər bölgələrində də keyfiyyətli və əlçatan tibbi xidmətin təşkil olunduğunu deyib.

"Bakı Ürək Günləri" Beynəlxalq Konqresinin fəxri qonağı, vaxtilə Klivlend klinikasında Ulu Öndərin həkimi olan məşhur kardioloq, professor Murat Tuzcu Heydər Əliyevlə bağlı xatirələrini bölüşüb.

Azərbaycan Ürək və Damar Cərrahiyyəsi Cəmiyyətinin sədri, professor Kamran Musayev konqresin keçirilməsində əsas məqsədin Azərbaycanda kardiologiyanın və ürək-damar cərrahiyyəsinin inkişafına töhfə vermək, əcnəbi mütəxəssislərlə birgə fikir mübadiləsi aparmaq və tibb elminin bu sahədəki son yeniliklərini müzakirə etmək olduğunu deyib. O qeyd edib ki, konqresdə 400-ə yaxın yerli və əcnəbi kardioloq və kardiocərrah iştirak edir və konqresin rəsmi açılış mərasimindən sonra ürək-damar xəstəlikləri, onların müalicəsindəki ən aktual məsələlər müzakirə ediləcək.

Qeyd edək ki, konqres elmi hissə ilə davam edir. Mayın 21-dək yerli və xarici mütəxəssislər təbabətin müxtəlif problemlərini əhatə edən təqdimatlarla çıxış edəcək, mövzular ətrafında müzakirələr aparılacaq.

# Azərbaycan nümayəndə heyəti NATO PA-nın yaz sessiyasında iştirak edir

**Mayın 19-da Lüksemburq Böyük Hersoqluğunun paytaxtı Lüksemburq şəhərində NATO Parlament Assambleyasının (PA) yaz sessiyası öz işinə başlayıb.**




AZƏRTAC xəbər verir ki, mayın 22-dək davam edəcək sessiyada alyansa üzv 31 ölkənin, eləcə də tərəfdaş dövlətlərin nümayəndələri iştirak edirlər.

Sessiyanın komitə iclasları çərçivəsində Ukraynada vəziyyət, transatlantik iqtisadi münasibətlərin və dayanıqlılığın yenidən qurulması, ərzaq və enerji təhlükəsizliyi, münaqişələr, NATO-nun açıq qapı siyasətinin gələcəyi və digər mövzularda müzakirələr aparılır.

Tədbirdə Azərbaycan Respublikasının NATO yanında nümayəndəliyinin və Milli Məclisin nümayəndələri iştirak edirlər.

# Qərbi Azərbaycan İcmasının UNESCO-nun Baş direktoruna ünvanladığı məktub BMT-nin rəsmi sənədi kimi yayılıb

**"Birləşmiş Millətlər Təşkilatının (BMT) katibliyi Qərbi Azərbaycan İcmasının UNESCO-nun Baş direktoru Odri Azuleyə ünvanladığı məktubu BMT Təhlükəsizlik Şurasının, Baş Assambleyasının və İqtisadi və Sosial Şurasının rəsmi sənədi kimi yayıb".**

Bu barədə AZƏRTAC-a icmanın sözçüsü Ülviyyə Zülfiqar məlumat verib.

O qeyd edib ki, icmanın rəhbər heyətinin, Qərbi Azərbaycandan olan ziyalıların, mədəniyyət və incəsənət xadimlərinin, şair və yazıçıların imzaladığı müraciət BMT-nin bütün rəsmi dillərində (ingilis, fransız, rus, Çin, ərəb və ispan), adıçəkilən əsas orqanların gündəliyinin silahlı münaqişələrin qarşısının alınması, sülh quruculuğu, qaçqınların hüquqlarının qorunması, irqi ayrı-seçkiliyin aradan qaldırılması, insan hüquqlarının təşviq olunması, soyqırımının, etnik təmizləmənin və insanlığa qarşı cinayətlərin qarşısının alınmasına dair bəndləri altında yayılıb.

Ülviyyə Zülfiqar bildirib ki, sözügedən müraciətin BMT-nin rəsmi sənədi kimi yayılması Qərbi Azərbaycanda dağıdılan mədəni irsimizlə bağlı məsələnin beynəlxalq gündəliyə gətirilməsində mühüm rol oynayan bir addımdır.

"Bu sənədin yayılması ilə həm də BMT-yə üzv dövlətlər indiki Ermənistan ərazisində məhv edilmiş və ya başqa ölkələrə məxsus imiş kimi təqdim edilən irsimiz barədə daha ətraflı məlumat almış olur. Mədəni hüquqların, yəni bütün müxtəlifliyi ilə insan yaradıcılığının və onun həyata keçirilməsi, inkişaf etdirilməsi, əlçatan edilməsi, qorunub saxlanılması və mühafizəsi üçün şəraitin təmin edilməsi bizim əsas hüquqlarımızın ayrılmaz bir hissəsidir", - deyə Ülviyyə Zülfiqar vurğulayıb.

Qeyd edək ki, sözügedən müraciətdə icma üzvləri Ermənistanda Azərbaycan mədəni irsinin dağıdılmasından dərin narahatlıqlarını ifadə etməklə Azərbaycan ictimaiyyətinin UNESCO-ya əvvəlki müraciətlərini təkrarlayaraq, Ermənistandakı Azərbaycan mədəni irsinin vəziyyətinin monitorinqi üçün buraya faktaraşdırıcı missiya göndərməsini bir daha xahiş etmişdi. Bu, artıq Qərbi Azərbaycan İcmasının BMT-də yayılan üçüncü rəsmi sənədidir. Bu ilin yanvar ayında icmanın beynəlxalq ictimaiyyətə müraciəti, mart ayında isə Qayıdış Konsepsiyası BMT-nin rəsmi sənədi kimi yayılmışdı.

# Beynəlxalq konfransda Azərbaycanda Milli Preventiv Mexanizmin fəaliyyəti barədə məlumat verilib

Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyevanın Macarıstana işgüzar səfəri davam edir.

Səfər çərçivəsində müvəkkil Macarıstan ombudsmanının təşkilatçılığı ilə Türk Dövlətlərinin Ombudsmanlar və Milli İnsan Hüquqları İnstitutları Assosiasiyasının Budapeştdə keçirilən beynəlxalq konfransında iştirak edib.

Ombudsman Aparatından AZƏRTAC-a bildirilib ki, Macarıstan, Türkiyə, Qazaxıstan, Özbəkistan ombudsmanlarının və nümayəndələrinin də iştirak etdiyi konfransda məruzə ilə çıxış edən Səbinə Əliyeva ölkəmizdə Milli Preventiv Mexanizm (MPM) fəaliyyəti çərçivəsində həyata keçirilən tədbirlər, qanunvericiliyin təkmilləşdirilməsi və tətbiq olunan bir sıra yeniliklər barədə məlumat verib.

Müvəkkil çıxışında azadlıqdan məhrum edilmiş şəxslərlə rəftara dair məsələlərin Ombudsman və Milli Preventiv Qrup tərəfindən müntəzəm olaraq monitorinq edilməsindən, penitensiar müəssisələrə, saxlanılan şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi digər yerlərə əvvəlcədən xəbərdarlıq edilmədən plan üzrə və ya plandankənar həyata keçirilən başçəkmələrdən danışıb. O, ötən il şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi yerlərə ümumilikdə 201 başçəkmənin həyata keçirildiyini konfrans iştirakçılarının diqqətinə çatdırıb.

Başçəkmələr zamanı saxlanılan şəxslərin Ombudsman və Milli Preventiv Qrupun üzvləri tərəfindən fərdi qəbul olunduğunu, həmçinin kollektiv görüşlərin və maarifləndirmə tədbirlərinin keçirildiyini də qeyd edib.

Müvəkkil MPM fəaliyyəti ilə bağlı illik hesabatların dərc olunduğunu bildirib. O, indiyə qədər hazırlanmış hesabatlarda qanunvericiliyin təkmilləşdirilməsi ilə bağlı 200-dən artıq tövsiyə və təklifin öz əksini tapdığını qeyd edib. Ombudsman məhkumların sağlamlıq hüquqlarının təmini, onlara ailə üzvləri və qohumları ilə videoəlaqə imkanı yaratmaq və digər istiqamətlər üzrə tövsiyə və təkliflərin irəli sürüldüyünü diqqətə çatdırıb.

# Günnüt əməliyyatı: böyük zəfərə aparan yollardan biri



**"2018-ci ildə uğurlu Naxçıvan əməliyyatı nəticəsində on min hektardan çox torpaq sahəsi Azərbaycan Ordusu tərəfindən götürüldü və işğalçılar o bölgələrdən qovuldu".**

Prezident İlham Əliyev Vətən müharibəsindən cəmi iki ay əvvəl şanlı Azərbaycan Ordusunun Günnüt qələbəsindən qürurla bəhs edərək, işğalçıları bu tarixi ərazilərimizdən qovaraq, o torpaqlarda Azərbaycan bayrağını ucaltdığımızı bəyan etdi.

Müzəffər Ali Baş Komandan İlham Əliyev bununla həm də Azərbaycan xalqına böyük zəfərin çox yaxında olduğunun müjdəsini verdi, işğalçı düşmənə başlarının tezliklə əziləcəyinin xəbərdarlıq mesajını yolladı.

## Qələbəyə doğru

Ulu Öndər Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirərək Azərbaycanı sürətli inkişaf mərhələsinə yüksəldən Prezident İlham Əliyevin ötən illər ərzində prioriteti işğal altında qalan torpaqlarımızın düşmən tapdağından azad edilməsi idi. Buna görə də ölkədə digər sahələrlə yanaşı, müasir ordu quruculuğuna böyük əhəmiyyət verilir, Azərbaycan Ordusunun arsenalı ən modern silah və digər hərbi texnika ilə daha da zənginləşdirilirdi.

Məkrli xarici qüvvələrin səyləri nəticəsində Qarabağ münaqişəsinin sülh vasitəsilə çözülməsi müşkülə çevrilmişdi və süni yollarla uzadılırdı. Eyni zamanda Hayastanın ölkəmizə qarşı təxribatları münaqişənin güc yolu ilə həllindən başqa çıxış yolunun olmaması reallığını ortaya qoyurdu.

Arxalandıqları xarici qüvvələrin köməyinə güvənərək daha da azğınlaşan və Azərbaycana qarşı növbəti təxribata əl atan haylar 2016-cı ilin Aprel döyüşlərində Azərbaycan Ordusu tərəfindən layiqli cavablarını alaraq yerlərində otuzduruldular.

2016-cı il aprelin 2-də düşmən təxribatlarına cavab olaraq Azərbaycan Ordusu sürətli əks-hücum əməliyyatı ilə Füzuli, Cəbrayıl və Tərtər rayonlarının işğal altındakı ərazilərinin 2000 hektardan çox hissəsini azad etdi. Tərtər-Suqovuşan istiqamətində yolların nəzarətdə saxlanılması təmin olundu. Həmçinin minlərlə hektar ərazi ordumuzun tam nəzarətinə keçdi. Ordumuzun güclü zərbələri nəticəsində düşmənin 30-dək tankı, 25-dən çox artilleriya qurğusu və digər zirehli texnikası məhv edildi, 320 hərbçisi öldürüldü, 500-dən artıq döyüşçüsü yaralandı.

Dördgünlük Aprel döyüşləri zamanı işğalçı Hayastan Azərbaycan Ordusunun gücünü döyüş meydanında əyani şəkildə daddı.

## Günnüt əməliyyatı Azərbaycan Ordusunun gücünü bir daha göstərdi

2016-cı il Aprel döyüşlərindən sonra böyük zəfərə aparan qələbə yolunun ən mühüm addımlarından biri 2018-ci ildə Naxçıvanda atıldı.

2018-ci il may ayının 20-dən 27-nə qədər həyata keçirilən əməliyyatda Şərur rayonunun Günnüt kəndi və ətrafındakı mühüm strateji əhəmiyyətli yüksəkliklər işğaldan azad edildi.

Uğurlu Naxçıvan əməliyyatı sayəsində ümumilikdə 11 min hektardan çox ərazi və Şərur rayonunun Günnüt kəndi, Ağbulaq yüksəkliyi, Qızılqaya dağı, Qaraqaya dağı düşməndən azad edildi. Dərələyəz mahalının Arpa kəndi isə Azərbaycan Ordusunun nəzarəti altına keçdi. Əməliyyat ordumuza İrəvan-Yeğeqnadzor-Gorus avtomobil yoluna nəzarət etməyə imkan verdi.

"Biz çox önəmli strateji yüksəklikləri Ermənistan ordusundan təmizlədik, o yüksəklikləri əldə etdik. Bu yüksəkliklər imkan verdi ki, biz artıq strateji kommunikasiyalara tam nəzarət edirik və Ermənistandan Dağlıq Qarabağa gedən yola da nəzarət edirik", - deyə 2021-ci il mayın 10-da Naxçıvan Muxtar Respublikasına səfəri çərçivəsində Azərbaycan Televiziyasına müsahibəsində Prezident İlham Əliyev bildirdi ki, İkinci Qarabağ müharibəsində bu yola nəzarət imkanlarımız bizə bir çox informasiyanın əldə edilməsində kömək göstərdi.

## Hayastanın "məğlubedilməz ordu" mifi darmadağın edildi

O zaman Ermənistan hakimiyyətinin bu əməliyyatı ictimaiyyətdən gizlətməyə çalışması Günnütdəki məğlubiyyətlərini qarşılaşacaqları daha ağır və acı reallıqların başlanğıcı saydıqlarının faktiki göstəricisi oldu.

2020-ci ilin iyul ayında Tovuz rayonu istiqamətində törətdikləri növbəti təxribatları zamanı isə Azərbaycan Ordusu tərəfindən ağır məğlubiyyətə uğradılması təcavüzkar düşmənin artıq sonunun çatdığını göstərdi.

Ümumiyyətlə, Aprel döyüşləri, Günnüt əməliyyatı, eləcə də Tovuz döyüşləri zamanı düşmən Azərbaycan Ordusunun qarşısında tab gətirməyəcəyini qəti dərk etdi. Hayastan illərdir öz ordusu haqqında uydurduğu "məğlubedilməz"lik mifinin tarmar edildiyini anladı.

Böyük zəfərə aparan bu üç yolun hər birində xalqımız milli həmrəylik nümayiş etdirdi. Azərbaycanın mərd oğul və qızları Ali Baş Komandanın Vətən uğrunda "İrəli" əmrinə hazır olduqlarını bildirdilər.

Qəhrəman Azərbaycan Ordusunun ard-arda düşmən üzərində qazandığı bu parlaq qələbələr bizi böyük zəfərə yetirdi.

## Rəşadətli ordumuzun düşmənə keçdiyi unudulmaz tarixi dərslər

Azərbaycan Silahlı Qüvvələri 2016-cı ilin aprelində, 2018-ci ilin mayında və 2020-ci ilin iyulunda döyüş meydanında düşmənə keçdiyi unudulmaz dərslərin ardından 44 günlük müharibədə Hayastanın ordusunu qarşısında diz çökdürərək birdəfəlik məhvə məhkum etdi.

Vətən uğrunda çıxdıqları haqq yürüşündə qəhrəman döyüşçülərimiz daim irəli getdi və 44 gün ərzində bircə dəfə də olmadı ki, igid oğullarımız düşmən tapdağından azad etdikləri ərazilərdən bir qarış belə geri çəkilsinlər.

Müzəffər Ali Baş Komandan İlham Əliyevin gücləndirdiyi ordumuz yüksək peşəkarlıq göstərərək çox qısa zamanda, cəmi 44 gün ərzində 300-dən çox yaşayış məntəqəsini və Qarabağın ürəyi Şuşanı azad etdi. "Dəmir yumruq" düşməni kapitulyasiyaya, Ağdamı, Kəlbəcəri və Laçını döyüşsüz tərk etməyə məcbur etdi.

Bu zəfər 30 illik torpaq həsrətimizə son qoydu, yüzminlərlə vətəndaşımızı məcburi köçkünlükdən qurtardı, bizi qalib xalqa çevirdi.

Bəli, Azərbaycan xalqını şanlı zəfərə aparan qələbə yollarından birinin təməli düz 5 il əvvəl, 2018-ci ildə Günnüt əməliyyatı ilə qoyuldu və igid oğullarımızın həmin vaxt göstərdikləri qəhrəmanlıq hərb salnaməmizə qızıl hərflərlə yazıldı.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

# Əlahiddə Ümumqoşun Orduya mediatur təşkil olunub

**Müdafiə Nazirliyinin təşkilatçılığı ilə Günnüt əməliyyatının beşinci ildönümü ilə bağlı Əlahiddə Ümumqoşun Orduya (ƏÜO) mediatur təşkil olunub.**



Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, səfər çərçivəsində media nümayəndələri azad edilmiş yüksəkliklərdə olub, Günnüt əməliyyatında iştirak etmiş hərbi qulluqçularla görüşüblər.

Qeyd edilib ki, Ulu Öndər Heydər Əliyevin başladığı və Müzəffər Ali Baş Komandan İlham Əliyevin davam etdirdiyi ordu quruculuğunun növbəti uğurlu mərhələsi olan Günnüt əməliyyatı Əlahiddə Ümumqoşun Orduda mövcud yüksək döyüş hazırlığının, peşəkarlığın real göstəricisidir.

Vurğulanıb ki, qürurla qeyd etdiyimiz Aprel döyüşləri, Günnüt zəfəri, Tovuz döyüşləri, Vətən müharibəsindəki qələbəmiz və sonrakı uğurlu əməliyyatlar Azərbaycanda xalq-dövlət-ordu birliyinin real nümayişi və şanlı hərb tariximizin parlaq səhifələrindəndir.

Bildirilib ki, 2018-ci ilin mayında Naxçıvan Muxtar Respublikasında Əlahiddə Ümumqoşun Ordunun keçirdiyi əməliyyat nəticəsində Şərur rayonunun Günnüt kəndi, Ağbulaq yüksəkliyi, Qızılqaya dağı, Qaraqaya dağı azad olunub. Bu istiqamətlərdə bir neçə əlverişli mövqelər Azərbaycan Ordusunun nəzarəti altına keçib. Əməliyyat nəticəsində 11 min hektardan artıq ərazi azad edilib.

Hərbi qulluqçular onlar üçün yaradılan şəraitdən məmnunluqlarını ifadə edib, Günnüt əməliyyatından xatirələrini media nümayəndələri ilə bölüşüblər. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin Günnüt əməliyyatına verdiyi yüksək qiymətin Əlahiddə Ümumqoşun Ordunun şəxsi heyəti üçün qürur mənbəyi olduğunu xüsusi vurğulayıblar. Qeyd olunub ki, bundan sonra da Vətənə, xalqa, hərbi anda sonsuz sədaqətlə xidmət edəcəklər.

Daha sonra media nümayəndələri Əlahiddə Ümumqoşun Orduda döyüş hazırlığı tədbirlərini izləyib, eləcə də hərbi qulluqçular üçün yaradılan şəraitlə tanış olublar.

Mediaturun sonunda media nümayəndələri ƏÜO-nun Təlim-Tədris Mərkəzində Günnüt əməliyyatının beşinci ildönümünə həsr olunmuş təntənəli tədbirdə iştirak ediblər.

# Günnüt əməliyyatı Vətən müharibəsindən əvvəl düşmənə edilən ciddi xəbərdarlıq idi

**2016-cı ildə uyğun zaman və məkan amilini düzgün dəyərləndirən Azərbaycan Ordusu ermənilərin növbəti təxribatı zamanı uğurlu döyüş əməliyyatı həyata keçirdi. Belə ki, Müzəffər Ali Baş Komandan, İlham Əliyevin rəhbərliyi ilə əks-hücum əməliyyatına başlayan ordumuz 2016-cı ilin Aprel döyüşləri nəticəsində Lələtəpə yüksəkliyi və ətraf əraziləri düşməndən azad etdi. Dördgünlük döyüşlərin növbəti mərhələsi isə Naxçıvanda uğurla davam etdirildi.**




Ali Baş Komandanın əmrinə əsasən verilən tapşırıq Əlahiddə Ümumqoşun Ordunun xüsusi təyinatlı bölmələri tərəfindən reallaşdırıldı. Onlar təyin olunmuş yerlərdən ərazinin kəşfiyyatını apardı, eyni zamanda düşmənin vəziyyətini qiymətləndirdi. Planlı şəkildə hazırlanmış və kəşfiyyat məlumatlarına əsaslanan əməliyyat düşmənin olduğu yüksəkliklərin və ərazinin dəqiqliklə incələnməsi nəticəsində həyata keçirildi. Ərazinin relyefini və minalanması ehtimalını nəzərə alan hərbçilər qarşıya qoyulmuş məqsədə çatmaq üçün zərgər dəqiqliyi ilə hərəkət etdilər.

Aprel döyüşlərindən iki il sonra mayın 20-si gecə vaxtı xüsusi hazırlıqlı bölmələrimiz müxtəlif istiqamətlərdə fəaliyyətə başladılar. Nəticədə isə bir neçə yüksəklik ələ keçirildi. Daha sonra isə digər bölmələr sol və sağ istiqamətdə irəliləyərək növbəti yüksəkliyi və Qızılqaya dağını nəzarətə götürdülər. Hərbçilərimiz isə bütün ehtimalları nəzərə alaraq hücuma keçən qüvvələrimizin müdafiəsini güclü formada təşkil etmişdilər. Yüksəkliklər sürətli hücumla ələ keçirildiyi üçün ermənilər bölmələrimizi bir qədər sonra müşahidə etməyə başladı və aldığımız əraziləri geri qaytarmaq üçün əkshəmlə etdi. Əvvəlcədən əməliyyat planı hazırlandığı üçün düşmənin hücumunun qarşısı qətiyyətlə alındı və iflasa uğradı. Strateji baxımdan əhəmiyyətli olan bu yüksəkliklərin tutulması Ermənistan Ordusunun üzbəüz mövqelərinin əhəmiyyətinin azalmasına səbəb oldu. Bu səbəbdən də düşmən mövqelərini geri çəkmək məcburiyyətində qaldı.

2018-ci ilin mayında Əlahiddə Ümumqoşun Ordunun uğurlu, dəqiq əməliyyatı, xüsusi hazırlıqlı hərbçilərimizin rəşadət və peşəkarlığı sayəsində 11 min hektardan çox ərazi və Şərur rayonunun Günnüt kəndi, Ağbulaq yüksəkliyi, Qızılqaya dağı, Qaraqaya dağı düşməndən azad edildi. Dərələyəz mahalının Arpa kəndi isə Azərbaycan Ordusunun nəzarəti altına keçdi. Əməliyyat ordumuza İrəvan-Yeğeqnadzor-Gorus-Laçın-Xankəndi avtomobil yoluna nəzarət etməyə imkan verdi. Qeyd olunan yollara nəzarət isə 44 günlük Vətən müharibəsi zamanı ermənilərin hərəkətlərini müşahidə edərək lazımi tədbirlər görməyə imkan verdi.

2018-ci ilin mayında nəzarətə götürülən və azad olunan ərazilərdəki yeni mövqelərimiz ərazidə düşmənin bütün hərəkətlərini müşahidə etməyə və nəzarətdə saxlamağa imkan verir. Beləliklə, Günnüt əməliyyatı ilə dövlət sərhədi boyunca əlverişli mövqelər Azərbaycan Ordusunun nəzarəti altına keçdi.

AZƏRTAC-ın müxbiri Şərur rayonunun Günnüt kəndində və ətraf strateji yüksəkliklərdə aparılan döyüş əməliyyatlarında qəhrəmanlıq göstərən Əlahiddə Ümumqoşun Ordunun bir neçə hərbi qulluqçusu ilə həmsöhbət olub.

Günnüt əməliyyatı ilə bağlı fikirlərini bölüşən hərbi qulluqçu Rəvan Yunusov deyib ki, 2018-ci ilin mayında Günnüt kəndi və ətrafındakı strateji əhəmiyyətli yüksəkliklər Əlahiddə Ümumqoşun Ordunun keçirdiyi uğurlu əməliyyat nəticəsində işğaldan azad edildi: "Dəqiqliklə planlaşdırılmış əməliyyatın uğurlu icrası bölmələrimizin ilkin mövqelərindən dərinliyə doğru daha əlverişli ərazilərdə yerləşməsinə imkan yaratdı. Mühəndis-istehkam bölmələri tərəfindən azad olunmuş ərazilərdə minalardan təmizləmə işləri aparıldı. Belə ki, 2000-dən çox piyada və tank əleyhinə mina aşkarlanaraq zərərsizləşdirildi".

Günnüt əməliyyatının iştirakçısı, hərbi qulluqçu Kamal Hüseynov bildirib ki, 2018-ci ilin may ayında Əlahiddə Ümumqoşun Ordu bu əməliyyatı planlaşdırdı və uğurlu şəkildə həyata keçirdi. "Hakim yüksəklikləri qruplarımızın və bölmələrimizin koordinasiyalı şəkildə birgə fəaliyyəti ilə ələ keçirdik. Döyüşün gedişində ermənilər müqavimət göstərərək bir neçə dəfə əks-hücuma keçdi. Buna baxmayaq, düşmənin bütün həmlələrinin qarşısı layiqincə alındı və onlara tutarlı cavab verildi", - deyə Kamal Hüseynov vurğulayıb.

Əlahiddə Ümumqoşun Ordunun hərbçisi mayor Əhməd Cəfərov Günnüt əməliyyatını belə xatırlayır: "2018-ci ilin mayında növbəti düşmən təxribatının qarşısını almaq məqsədilə bizim bölmələr həyəcan siqnalı ilə Günnüt kəndi ətrafındakı strateji əhəmiyyətli yüksəkliklərə çıxarıldı. Ermənilərin qurduğu istehkamlara və ərazinin minalı olmasına baxmayaraq, bölmələrimiz uğurlu hücumla tapşırığı müvəffəqiyyətlə yerinə yetirdilər".

Ə.Cəfərov diqqətə çatdırıb ki, Günnüt zəfəri dəqiq və planlı şəkildə həyata keçirildi.

Günnüt əməliyyatının əhəmiyyətindən danışan hərbi qulluqçu Şahmar Tağıyev deyib ki, bu döyüşlə Naxçıvan Muxtar Respublikasının ərazisində Ermənistan-Azərbaycan qoşunlarının təmas xəttinə yaxın kəndlərdə yaşayan dinc əhalinin təhlükəsizliyi təmin edildi. Çünki Ermənistanın hərbi təxribatları yaxın ərazilərdə yaşayan əhalinin təhlükəsizliyini ciddi şəkildə təhdid edirdi.

Əlahiddə Ümumqoşun Ordunun zabiti leytenant Kamran İbrahimov qeyd edib ki, düşmən təxribatı nəticəsində 1992-ci ildə Şərur rayonunun Günnüt kəndi ermənilər tərəfindən işğal olunub. 2018-ci ilin mayında Əlahiddə Ümumqoşun Ordunun bölmələrinə verilmiş tapşırıq Şərur rayonunun Günnüt kəndinin düşmən tapdağından azad edilməsi idi. "Biz bu tapşırığı aldıqdan sonra kəndin ətrafında ərazinin kəşfiyyatını apardıq. Müəyyən olundu ki, ərazi yüksək dağlara və əhəmiyyət kəsb edən yüksəkliklərə malikdir. Nəticədə biz kiçik qruplar şəklində kəndin strateji mövqelərini ələ keçirdikdən sonra istehkam cəhətdən orada bərkitmə işləri apardıq.

Ərazinin yüksəklikləri tutulduqdan bir neçə gün sonra düşmən planlı və hazırlıqlı şəkildə hücuma keçdi. Əvvəlcə onlar şok atəşi ilə olduğumuz mövqelərə zərbələr endirdilər. Biz isə əvvəlcədən orada istehkam işləri aparmışdıq. Bu səbəbdən də ermənilərin itirilmiş əraziləri geri qaytarmaq üçün etdiyi cəhdlər uğursuzluqla nəticələndi. Əlahiddə Ümumqoşun Ordunun zabiti olaraq ilk uğurlu əməliyyatımız Günnüt zəfəri, ikincisi isə 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsi oldu", - deyə Kamran İbrahimov sözlərinə əlavə edib.

# "Ən yaxşı ictimai-siyasi hazırlıq dərsinin qrupu" müsabiqəsi keçirilir

**Cari il üçün hazırlıq planına əsasən, "N" hərbi hissəsində "Ən yaxşı ictimai-siyasi hazırlıq dərsinin qrupu" müsabiqəsi keçirilir.**







Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, ictimai-siyasi hazırlıq dərsinin qrup rəhbərlərinin pedaqoji vərdişlərinin təkmilləşdirilməsi, hərbi qulluqçularla ideoloji işin düzgün aparılması qaydalarının qrup rəhbərlərinə öyrədilməsi məqsədilə keçirilən müsabiqənin əsas məqsədi hərbi kollektivlərdə döyüş əzminin daim yüksək səviyyədə saxlanılması, o cümlədən xalqa, dövlətə, Ali Baş Komandana və hərbi anda sədaqətin şəxsi heyətə aşılanması, ictimai-siyasi hazırlıq sahəsində qabaqcıl təcrübənin təbliğidir.

Plana uyğun olaraq, hərbi hissələrdə birinci mərhələ üzrə mükafatlandırılan qaliblər yekunda Azərbaycan Ordusu üzrə keçiriləcək müsabiqədə iştirak edəcəklər.



## Azərbaycanın QURTULUŞ salnaməsi:
## Heydər Əliyevdən İlham Əliyevə
30

**Heydər Əliyev XX əsrin nadir şəxsiyyətlərindən biri olmaqla yanaşı, Azərbaycanın bütün dünya ölkələri ilə strateji tərəfdaşlığının təməlini qoymuş, uğurlu və tarazlaşdırılmış siyasətin bünövrəsini yaratmış, ölkəmizin gələcək inkişafının strategiyasını müəyyənləşdirmiş, XX əsrin reallıqlarında müstəqil və güclü Azərbaycan dövlətçiliyinin qurucusu və memarı olmuşdur.**



# Ölkəmizin inkişaf strategiyasını müəyyənləşdirən lider

Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100 illiyinin böyük qürur hissi ilə qeyd edilməsi xalqımızın ictimai-siyasi həyatında çox böyük əhəmiyyətə malik olan mühüm hadisədir. 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi haqqında Prezident İlham Əliyevin imzaladığı sərəncamda deyilir: "Heydər Əliyev öz xalqını zamanın mürəkkəb tarixi-siyasi sınaqlarından uğurla çıxarmış və ardıcıl mübarizə apararaq onu müstəqilliyə qovuşdurmuş qüdrətli şəxsiyyətdir. Azərbaycan xalqı yeni əsrə və yeni minilliyə məhz Heydər Əliyev zəkasının işığında qədəm qoymuşdur". Milli dövlətçilik və azərbaycançılıq fəlsəfəsini Azərbaycan mentaliteti ilə birləşdirən Heydər Əliyev özünün fenomenal siyasi keyfiyyətləri sayəsində bütün mütərəqqi qüvvələri müstəqilliyin qorunması ətrafında cəsarətlə birləşdirə bilmiş, xalqın və dövlətin demokratik dəyərlər qanunu ilə idarə edilməsinin zəngin məktəbini yaratmışdır. Bu məktəbin layiqli davamçısı Prezident İlham Əliyevin rəhbərliyi ilə müstəqil Azərbaycan Respublikası daxili və xarici siyasətdə böyük nailiyyətlər qazanmış, sosial, iqtisadi, mədəni və beynəlxalq sahədə fundamental müvəffəqiyyətlərə nail olmuş, iqtisadi inkişaf sürətinə görə lider dövlətə çevrilmişdir. Prezident İlham Əliyevin dediyi kimi, 1993-2003-cü illərdə 10 il ərzində görülmüş işlər bir əsr ərzində görülmüş işlərə bərabərdir. Məhz Heydər Əliyevin böyük fəaliyyəti nəticəsində Azərbaycan dövləti qurulmuş və dövlətçilik prinsipləri inkişaf etdirilmişdir.

Heydər Əliyev şəxsiyyəti ümumxalq zəkası ilə ayrılmaz bir vəhdətdə, vahid bir ideyada birləşmişdir. Böyük rəhbər Azərbaycan xalqının bütün yaradıcılıq potensialını müstəqillik ideyalarında birləşdirən və bu müstəqilliyi daha da möhkəmləndirən Ümummilli Lider səviyyəsinə yüksəlmişdir.

Son iki əsrin qovşağında Azərbaycanda baş verən köklü dəyişikliklər ölkəmizin gələcək inkişafını müəyyənləşdirən başlıca amillərdən biri oldu. Bu illərdə Azərbaycan müstəqillik qazanmaqla yanaşı, özünün ərazi bütövlüyünü itirməklə də üz-üzə qaldı. Hələ 1988-ci ildən başlayaraq erməni millətçi şovinistlərinin uydurduğu Qarabağ problemi getdikcə dərinləşərək qanlı faciələr törədilməsi ilə nəticələndi. Belə bir vaxtda erməni təcavüzünün qarşısını almaq üçün və müstəqillik uğrunda genişlənən azadlıq hərəkatı səkkiz milyonluq Azərbaycan xalqını ayağa qaldırdı və onun qarşısına yeni tarixi vəzifələr qoydu. Azərbaycanı müstəqil görmək arzusu ilə yaşayan xalqımız özünün azadlıq mübarizəsini daha da genişləndirdi və nəticədə dövlət müstəqilliyini bərpa edə bildi. Bu, xalqımızın azadlıq və müstəqillik uğrunda apardığı prinsipial mübarizəsində qazandığı parlaq nailiyyət və böyük tarixi qələbə idi. Beləliklə, 1991-ci il oktyabrın 18-də Azərbaycanın Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktının qəbul edilməsi ilə xalqımız özünün müstəqilliyini yenidən qazandı. Ümummilli Lider Heydər Əliyevin dediyi kimi, müstəqil Azərbaycan Respublikası bizim ən böyük tarixi nailiyyətimizdir və Azərbaycanın müstəqilliyi daimidir, dönməzdir, əbədidir.

Azərbaycanın müstəqillik aktı qəbul edildikdən sonra qarşıda hələ çətin və mürəkkəb vəzifələr dururdu. Bir tərəfdən erməni təcavüzü genişlənir, torpaqlarımız işğal edilir, digər tərəfdən ölkə daxilində hakimiyyət uğrunda siyasi çəkişmələr güclənir və nəticədə xalq ağır itkilər verirdi. Azərbaycanın belə ağır vaxtında müxtəlif bölgələrdə yaranan silahlı qruplar ölkəni parçalamaq, hakimiyyəti ələ keçirmək niyyəti ilə çıxışlar və qiyamlar etməyə çalışdılar. Azərbaycan çox çətin dilemma qarşısında qalmışdı. 1990-cı illərin əvvəllərində ölkə iqtisadi, siyasi və hərbi böhran içərisində idi, dərinləşməkdə olan çəkişmələr və hakimiyyət böhranı ölkəni iflic vəziyyətə salmışdı. Dünya azərbaycanlılarının II qurultayında (mart-2006) Azərbaycan Prezidenti cənab İlham Əliyevin dediyi kimi, bütövlükdə Azərbaycan dövlətinin taleyi sual altında idi.

Ölkədə dərin və təhlükəli ictimai, siyasi və iqtisadi böhran yaranmışdı. Həmin dövrün ətraflı təhlilini verən Ümummilli Lider Heydər Əliyev demişdir: "… Vəziyyət elə təhlükəli xarakter almışdı ki, 1991-ci ildə yaranmış müstəqil dövlətimiz qəsdən və yaxud səriştəsizlikdən yaranan idarəsizlik nəticəsində real itirilmək təhlükəsi ilə üz-üzə qalmışdı. Beləliklə, 1991-1993-cü illər Azərbaycanın müstəqillik tarixində nəinki itirilmiş illər hesab olunur, həm də bu illərdə Azərbaycan "ölüm ya olum" dilemması qarşısında qalmışdı". Azərbaycan xalqının belə ağır və çətin vaxtında hamının diqqəti o zaman Naxçıvan Ali Sovetinin Sədri vəzifəsində çalışan Heydər Əliyevə yönəldi. Çünki xalqı belə ağır vəziyyətdən qurtara bilən yeganə dünyəvi şəxsiyyət ancaq və ancaq Heydər Əliyev ola bilərdi. Azərbaycan xalqının təkidli tələbi ilə Heydər Əliyev 1993-cü il iyunun 9-da Bakıya gəldi, iyunun 15-də Respublika Ali Sovetinin (indiki Milli Məclis) Sədri seçildi. Həmin gün Azərbaycan xalqının şərəfli tarixinə Milli Qurtuluş Günü kimi daxil oldu. Heydər Əliyev ümumxalq səsverməsi yolu ilə 1993-cü ilin oktyabrında Azərbaycan Respublikasının Prezidenti seçildi.

Azərbaycan xalqının tarixində yeni bir dövr başlandı. Milli Məclisin 1997-ci il 27 iyun tarixli iclasında 15 İyun günü "Milli Qurtuluş Günü" elan edildi.

Dövlət başçısı kimi fəaliyyətə başladığı ilk gündən Heydər Əliyev ölkəmizin daxili və xarici siyasət proqramını hazırladı, dağıdılmış iqtisadiyyatın bərpası və inkişaf etdirilməsinin strategiyasını müəyyənləşdirdi, azad bazar iqtisadiyyatına doğru dərin və əhatəli sosial-iqtisadi, siyasi və mədəni islahatlar kursunu inkişaf etdirdi. Prezident Heydər Əliyev qısa zamanda ölkənin sosial-iqtisadi, siyasi və mədəni inkişafının elmi cəhətdən əsaslandırılmış proqramını hazırladı. Dünyanın inkişaf proqramından və təcrübəsindən istifadə edərək, milli iqtisadiyyatın inkişafının spesifik cəhətləri, xüsusiyyətləri və milli mentalitetimizə uyğun bütün parametrlər nəzərə alınaraq, yeni-yeni layihələr və dövlət proqramları hazırlandı. Ölkəmizin inkişaf dövrü başlandı.

İyirminci yüzilliyin üçdəbiri qədər ölkəmizi idarə edən bu dahi şəxsiyyət qısa zaman kəsiyində nəinki Azərbaycanı dünyaya tanıtdıra bildi, habelə Azərbaycan sivilizasiyalı dövlətlər bərabərliyinə yüksələ bildi. İstər sovet dövründə, istərsə də müstəqilliyimiz illərində Azərbaycan sosial-iqtisadi, siyasi, mədəni, elm və təhsil sahələrində fundamental nailiyyətlər qazandı, demokratik dəyərlərə malik yüksək göstəricilər əldə etdi.

Heydər Əliyev Azərbaycan dövlətçiliyinin bütöv bir təlimini və onun inkişaf strategiyasının uğurlu istiqamətlərini yaratdı. Ulu Öndərin ecazkar gücü və qüdrətli təşkilatçılığı ilə müstəqillik ideyaları sovet dövründə də parlaq və şəfəqlənən ideala çevrilmiş, sanki gələcək azadlıq mübarizəsinin konturlarını müəyyənləşdirmişdir.

İlham Əliyevin imzaladığı sərəncamda deyildiyi kimi, 1970-ci illərdə Ulu Öndərin "atdığı qətiyyətli addımlar müstəqil dövlət quruculuğuna aparan yolun təməl daşına çevrilmişdir". Heydər Əliyev bəşər həyatının ən yüksək zirvəsindən insan azadlığını və müstəqilliyi tanrı vergisi kimi müqəddəs bilmiş, hələ vaxtında, yəni ötən əsrin 70-ci illərində keçmişlə gələcəyi bir-birinə bağlayan və bir-birini tamamlayan qırılmaz vasitə kimi əlaqələndirmə körpüsü yaratmış və beləliklə, Azərbaycan xalqının vahidliyini düşünərək tərəqqinin inkişaf istiqamətlərini və müstəqillik yollarını müəyyən etmişdir.

Heydər Əliyev tərəfindən yaradılmış yeni dövlətçilik strukturları daxili mahiyyətinə və vəzifələrinə görə bəşəri məzmun daşıyır və elmi baxımdan daha dolğun və daha düzgün istiqamətləndirilmişdir ki, bugünkü uğurlarımız və nailiyyətlərimiz də həmin köklərə və həmin mənbələrə söykənir. Hazırda dünyanın bir çox dövlət xadimi onu yüksək qiymətləndirir.

Böyük rəhbər 1993-cü ilin oktyabrında 98,8 faiz səslə Azərbaycan Respublikasının Prezidenti seçildi. Andiçmə mərasimində çıxış edən Prezident Heydər Əliyev qarşıda böyük və mürəkkəb vəzifələrin dayandığını və onların həlli yollarının istiqamətlərini, bir sözlə, müstəqil dövlətimizin daxili və xarici siyasətinin konseptual vəzifələrini konkret müəyyənləşdirdi. Andiçmə mərasimində dedi: "Əlimi Azərbaycan Respublikasının Konstitusiyasına və "Qurani-Kərimə" basaraq and içirəm ki, biliyimi, təcrübəmi, qüvvəmi Azərbaycan xalqının, Azərbaycan Respublikasının rifahına həsr edəcəyəm, xalqımızın milli-mənəvi ənənələrinə daim sadiq olacaq və bu ənənələrin bərqərar olmasına təminat yaradacağam".

Heydər Əliyevin ictimai-siyasi və dövlətçilik fəaliyyəti, onun proqram xarakterli çıxışları, nitq və məruzələri çağdaş tariximizi sistemli-müqayisəli formada öyrənmək baxımından çox qiymətli bir məxəzdir və zəngin tarixi mənbədir.

Apardığımız tədqiqatlar və araşdırmalar nəticəsində aydın olur ki, Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra ölkəmizdə köklü islahatlar aparıldı və fundamental əhəmiyyətə malik olan tədbirlər həyata keçirildi.

Öncə onu demək lazımdır ki, böyük dövlətçilik təcrübəsinə malik olan Heydər Əliyevin birinci dəfə Azərbaycana rəhbərlik etdiyi 1969-1982-ci illərdə fundamental nailiyyətlər qazanıldı. Həmin illərdə respublikada 250-dən çox zavod, fabrik və digər sənaye müəssisələri, o cümlədən Mingəçevir və Şamxor SES-ləri, Bakı kondisioner zavodu, Sumqayıt kompressorlar zavodu, Gəncədə xalça zavodu, qənnadı zavodu, çini-saxsı qablar zavodu, Əli-Bayramlı məişət cihazları zavodu, Bakıda neft emal zavodu, neft maşınqayırma zavodu, ELOU-AVT üzən qurğusu, Naxçıvanda, Balakəndə, Zaqatalada və Xankəndidə aeroportlar, Bakıda yeni təyyarə limanı, Yevlax-Balakən və Ağdam-Xankəndi dəmir yolları, Bakı metrosunun 2-ci növbəsi, Bakıda 7 mikrorayon, Badamdar, Əhmədli, Hövsan yaşayış kompleksləri və digər sənaye müəssisələri tikilib istifadəyə verildi. Heydər Əliyevin göstərişi ilə Azərbaycanda 6 yeni ali məktəb, C.Naxçıvanski adına hərbi məktəb, çoxlu təhsil müəssisələri yaradıldı, milli yaddaş və milli özünüdərk ideyaları inkişaf etdirildi. Nizami, Nəsimi, Gəncə, Babək adına rayonlar yaradıldı.

1978-ci ildə qəbul edilən Azərbaycan SSR-in yeni Konstitusiyasında 15 sovet respublikası içərisində yeganə olaraq Azərbaycan dili rəsmi dövlət dili kimi Konstitusiyaya daxil edildi.

Nizami, Əcəmi, Nəsimi, Tusi, Vaqif, Aşıq Ələsgər, Aşıq Alı, Üzeyir bəy Hacıbəyli, Müslüm Maqomayev, Hüseyn Cavid və başqalarının təntənəli yubileyləri keçirildi. Taqanroqda, Sevastopolda milli diviziyaların şərəfinə abidələr ucaldıldı. Heydər Əliyevin Azərbaycana rəhbərliyi illərində 350 adda sənaye məhsulu dünyanın 65 ölkəsinə ixrac edilirdi. Bütün bunlara görə, 1969-1982-ci illər Azərbaycan tarixində dönüş mərhələsi adlanır. Həmin illərdə Azərbaycanın sosial-iqtisadi və mədəni inkişafında böyük nailiyyətlər qazanıldı.

Heydər Əliyev 1990-cı ilin iyununda Bakıya, oradan da Naxçıvana gəldi, 1991-ci ilin sentyabrından Azərbaycan xalqının qurtuluş hərəkatı başlandı və bu qurtuluş hərəkatına başçılıq etməyə başladı. Naxçıvana rəhbərlik etdiyi illərdə Heydər Əliyevin təşəbbüsü ilə muxtar respublikanın adından "sovet sosialist" sözləri çıxarıldı, "Ali Sovet", "Ali Məclis" adlandırıldı, ADR-in üçrəngli bayrağı ilk dəfə Naxçıvan MR-in dövlət bayrağı kimi qəbul edildi, Kommunist Partiyasının fəaliyyəti dayandırıldı, SSRİ-nin saxlanılması barədə referendumdan imtina edildi, 20 Yanvar faciəsinə ilk dəfə siyasi-hüquqi qiymət verildi, dünya azərbaycanlılarının həmrəylik gününün qeyd olunması barədə tarixi qərar qəbul edildi. Bu cəsarətli addımların atılması Naxçıvanı qurtuluş mücadiləsinin önünə çıxardı və Heydər Əliyevə ümumxalq məhəbbəti daha da artdı. Azərbaycan xalqı aydın şəkildə dərk etdi ki, ölkəni bu xaosdan qurtara bilən yeganə şəxsiyyət və dövlət rəhbəri ancaq və ancaq Heydər Əliyev ola bilər.

Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpası ilə əldə edilən nailiyyətlər və doxsanıncı illərin əvvəllərində ölkədə yaranmış dərin siyasi hakimiyyət böhranı, Dağlıq Qarabağ və Ermənistan-Azərbaycan müharibəsi, erməni millətçi silahlı birləşmələri tərəfindən torpaqlarımızın işğalı dövlət müstəqilliyimizin taleyini təhlükə qarşısında qoydu. Belə ağır və mürəkkəb vaxtda Azərbaycan xalqının təkidli xahişi ilə Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışı xalqımızın tarixinə Milli Qurtuluş Günü kimi daxil oldu və dövlət müstəqilliyinin möhkəmləndirilməsi istiqamətində Heydər Əliyevin hərtərəfli fəaliyyəti daha da genişləndi, qətiyyətli və prinsipial uğurlar əldə edildi. "Heydər Əliyev hakimiyyətə gəlməsi ilə dövlətçilik institutunun əsl simasını özünə qaytardı, xalqın dövlətçilik barədə təsəvvürləri tamamilə dəyişdi".

Heydər Əliyevin respublikaya rəhbərliyə başladığı ilk gündən əsas diqqət ölkə daxilində siyasi parçalanmanın və vətəndaş qarşıdurmasının qarşısının alınmasına, sakitliyə və sabitliyə, cəbhədə atəşkəsə nail olunmasına, sürətlə artmaqda olan inflyasiyanın qarşısının alınmasına, azad bazar iqtisadiyyatına doğru dərin sosial-iqtisadi, siyasi və mədəni islahatların həyata keçirilməsinə yönəldildi.

Qısa zaman kəsiyində Heydər Əliyevin çox böyük təşkilatçılığı və rəhbərliyi, məqsədyönlü siyasəti sayəsində Azərbaycan xalqının milli birliyi bərqərar oldu, ictimai, siyasi sabitlik bərpa olundu, hakimiyyət böhranı aradan qaldırıldı, əhəmiyyətli qərarlar və fərmanlar qəbul edildi, təsirli tədbirlər həyata keçirildi, müstəqil dövlətçiliyimizin möhkəmləndirilməsi üçün əsaslı şərait yarandı.

Qısa zamanda Heydər Əliyev tərəfindən Azərbaycan Respublikasının xarici siyasət strategiyasının konseptual, elmi əsasları yaradıldı, bütöv bir təlimin beynəlxalq münasibətlər sisteminə uyğunlaşdırılması istiqamətləri, prinsip və vəzifələri, düşünülmüş taktiki yolları, dünya dövlətləri ilə əlaqələrin yaxın və uzaq strategiyası müəyyənləşdirildi. Hazırlanan proqramda sülhsevərlik, mehriban qonşuluq və dinc yanaşı yaşamaq prinsipləri, başqasının daxili işlərinə qarışmamaq, qarşılıqlı faydalı əməkdaşlıq kimi yüksək bəşəri dəyərlər öz əksini tapdı.

Prezident Heydər Əliyev dövlətimizin xarici siyasət proqramını belə müəyyənləşdirirdi: "Azərbaycan dövlətinin xarici siyasətinin başlıca prinsipləri beynəlxalq hüquq normaları ilə tənzimlənən dövlətlərarası münasibətlərə hörmət etməkdən, bütün dövlətlərin suveren hüquqlarına hörmətlə yanaşmaqdan, bütün mübahisəli məsələləri sülh və danışıqlar yolu ilə həll etməkdən, qarşılıqlı əməkdaşlıq yaratmaqdan, dövlətlərarası əlaqələrə mane olan hər cür məhdudiyyətləri aradan qaldırmaqdan ibarətdir". Bununla da Heydər Əliyev tərəfindən Azərbaycan Respublikasının xarici siyasət strategiyasının əsasları yaradıldı, bütöv bir təlimin beynəlxalq münasibətlər sisteminə uyğunlaşdırılan istiqamətləri, prinsip və vəzifələri, həyata keçirilməsinin elmi cəhətdən dərindən düşünülmüş taktiki yolları müəyyənləşdirildi ki, həmin demokratik prinsiplər onun dünyəvi əhəmiyyətini xeyli artırdı.

Təkcə bu faktı demək kifayətdir ki, Azərbaycan Respublikası bu dövrdə dünyanın təqribən 137 ölkəsi ilə diplomatik əlaqə qurmuşdur. Azərbaycanda 63 xarici dövlətin səfirlikləri fəaliyyət göstərirdi. Öz növbəsində Azərbaycanın 21 xarici ölkədə səfirliyi, daimi nümayəndəliyi və konsulluğu fəaliyyət göstərirdi.

Prezident İlham Əliyevin uğurlu diplomatik siyasəti nəticəsində hazırda Azərbaycanda dünyanın 66 dövlətinin səfirliyi, 4 baş konsulluğu, 3 fəxri konsulluğu, 22 beynəlxalq təşkilatın nümayəndəliyi fəaliyyət göstərir. Öz növbəsində ölkəmiz dünyanın 170-ə qədər ölkəsi ilə diplomatik münasibətlər yaratmışdır. Azərbaycanın dünyanın 59 ölkəsində səfirliyi, 9 baş konsulluğu, 5 beynəlxalq təşkilat yanında daimi nümayəndəliyi, 15 fəxri konsulluğu fəaliyyət göstərir.

Bir fakt da xüsusi qeyd olunmalıdır ki, Azərbaycanda hüquqi, demokratik və dünyəvi dövlət quruculuğunun həyata keçirilməsində, milli dövlət strukturlarının yaradılmasında və formalaşmasında yeni Konstitusiyanın (1995-ci il) qəbul edilməsinin böyük əhəmiyyəti oldu. Milli Konstitusiyamızın qəbul olunması Azərbaycanda dövlət müstəqilliyinin daimi, əbədi olmasını bir daha dünyaya sübut etdi, demokratik vətəndaş cəmiyyəti quruculuğuna, insanların azad və sərbəst yaşamalarına, insan haqları və hüquqlarının genişlənməsinə əlverişli şərait yaratdı.

Müstəqil dövlətimizin Konstitusiyası Heydər Əliyevin şah əsəridir.

Azərbaycan tarixinin ən parlaq səhifələrindən biri olan "Əsrin müqaviləsi"nin imzalanması Heydər Əliyev dühasının və uzaqgörən diplomatiyasının böyük və tarixi qələbəsi, neft strategiyası siyasətinin parlaq uğuru idi. Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə beynəlxalq əhəmiyyətə malik olan neft kontraktları haqqında 1994-cü il sentyabrın 20-də sazişlərin imzalanması müstəqil Azərbaycanı dünyanın nəhəng dövlətlərinin diqqət mərkəzinə gətirdi. İri dövlətlərin böyük neft şirkətləri tezliklə bu müqaviləyə qoşulmağa çalışdı. Azərbaycan neft sənayesinin inkişafına beynəlxalq sərmayələrin qoyulması çoxaldı. Azərbaycanın neft sənayesi sürətlə inkişaf etdi. Heydər Əliyevin rəhbərliyi ilə tezliklə **Bakı-Novorossiysk** və **Bakı-Supsa** kəmərləri çəkilib istifadəyə verildi. Bakı nefti Rusiyaya və Avropaya nəql edilməyə başlandı. Bununla yanaşı, Prezident Heydər Əliyev daha böyük beynəlxalq layihələrə imza atdı.

Məhz Heydər Əliyevin fəal və uzaqgörən daxili və xarici siyasəti nəticəsində Azərbaycan transmilli layihələrə qoşuldu, qlobal və regional layihələrin, o cümlədən Bakı-Tbilisi-Ceyhan neft boru kəmərinin reallaşdırılmasına nail olundu. Azərbaycan Prezidenti İlham Əliyevin sözləri ilə desək, Bakı-Tbilisi-Ceyhan neft boru kəməri Heydər Əliyev siyasətinin qələbəsidir.

Heydər Əliyev siyasətinin ən parlaq uğurlarından biri Azərbaycan xalqının milli mənəvi dəyərlərinin dirçəlişi və qorunub saxlanılması, böyük cəsarətlə milli söykökümüzə, tariximizə, ədəbiyyatımıza və mədəniyyətimizə, ana dilimizə və Vətən tariximizə verilən böyük qiymət və dəyərlərdir. Azərbaycan xalqının milli mənəvi dəyərlərinin qorunub saxlanılmasında və müasir dövrümüzdə yeni-yeni müsbət keyfiyyətlərlə daha da zənginləşdirilməsində, ağıllı və dərin, düşünülmüş diplomatik siyasətin həyata keçirilməsində Ulu Öndərin zəngin dövlətçilik təcrübəsinin çox böyük rolu və əhəmiyyəti olmuşdur.

Milli söykökümüzə qayıtmaq, milli şüurun dirçəlməsində tariximizin "ağ" və "qara ləkələri"nin silinməsi, tarixi ədalətin bərpa olunması və obyektiv həqiqətlərin üzə çıxarılması istiqamətində Ümummilli Liderin cəsarətli siyasəti və qəbul etdiyi təsirli dövlət qərarları Azərbaycan tarixinin öyrənilməsi üçün böyük əhəmiyyətə malik olan sənədlərdir. Heydər Əliyevin azərbaycanlı əhalinin 1948-1953-cü illərdə Ermənistan SSR-dən doğma dədə-baba yurdlarından və torpaqlarından zorakılıqla deportasiya edilməsi haqqında 1997-ci il 18 dekabr tarixli və 31 Mart azərbaycanlıların soyqırımı haqqında 1998-ci il 26 mart tarixli imzaladığı fərmanlar sözün əsl mənasında xalqımızın tarixinə olan qayğı, diqqət və hörmətdir, tarixi ədalətin və sovet imperiyası dövründə unudulmuş tariximizin və yaddaşımızın bərpasıdır, o tarixi cinayətlərə verilən hüquqi-siyasi qiymətdir. Həmin fərmanlar tarixçi və ictimaiyyətçi alimlərimizə aydın və konkret istiqamətlər verdi və hadisələrin tədqiqinə və araşdırılmasına əsaslı şərait yaratdı. Heydər Əliyev demişdir: "Bizim xalqımızın böyük və möhtəşəm tarixi var, böyük dövlətçilik tariximiz var. Biz tariximizlə fəxr edə bilərik".

Ümummilli Lider çox gözəl bilirdi ki, Azərbaycanın dövlət müstəqilliyini möhkəmləndirmək, dərinləşməkdə olan Dağlıq Qarabağ hadisələrini ədalətlə həll etmək, erməni işğalçıları tərəfindən zəbt olunmuş torpaqlarımızı azad etmək üçün müasir standartlara cavab verə bilən güclü Silahlı Qüvvələr lazımdır. Bu məqsədlə ordu quruculuğunda köklü islahatların aparılması zəruri idi. 1990-cı illərin əvvəllərində Azərbaycan Ordusu pərakəndə halda və könüllü hərbi birləşmələrdən ibarət idi və mərkəzə bəzən tabe olmurdu. Belə bir şəraitdə könüllü hərbi birləşmələri buraxmaq, mərkəzləşdirilmiş ordu yaratmaq və onu komplektləşdirmək, əlbəttə, çox çətin idi və vaxt tələb edirdi. Ancaq böyük dövlətçilik təcrübəsinə, yüksək təşkilatçılıq qabiliyyətinə və dəmir iradəyə malik olan Ümummilli Lider qısa zaman kəsiyində Silahlı Qüvvələrin yaradılmasına, onun döyüş texnikası və müasir dünyəvi silahlarla təchiz və təmin olunmasına, siyasi və təşkilati cəhətdən möhkəmləndirilməsinə nail oldu. Şəxsən özünün diqqətində və nəzarətində saxladığı ordu quruculuğu məsələsi ilə əlaqədar hərbi hissələrə getdi, döyüş cəbhələrində oldu, əsgər və zabitlərlə görüşdü, generalları dinlədi, mütəxəssis təkliflərini dəyərləndirdi və dünya təcrübəsindən istifadə edərək NATO və Türkiyə Silahlı Qüvvələrinin nümunəsində Azərbaycanın güclü Silahlı Qüvvələrini yarada bildi ki, bu gün biz öz milli ordumuzla fəxr edirik. Danılmaz faktdır ki, müasir Azərbaycan Ordusunun yaradılmasının və onun formalaşdırılmasının memarı Ümummilli Lider Heydər Əliyevdir.

Prezident İlham Əliyevin dediyi kimi, müasir Azərbaycan Ordusu dünyanın ən güclü orduları sırasındadır. Məhz güclü Azərbaycan Ordusu 44 günlük İkinci Qarabağ müharibəsi zamanı parlaq qələbə ilə 30 illik işğala son qoydu, Azərbaycanın ərazi bütövlüyünü təmin etdi. Çağdaş tariximizin ictimai-siyasi və dövlətçilik təcrübəsinin varislik əlaqəsi baxımından araşdırılması bir daha onu sübut edir ki, müstəqilliyimizin möhkəmləndirilməsi istiqamətində bəzi yarımçıq qalmış problemlər Prezident İlham Əliyev tərəfindən uğurla həll edilmiş, Heydər Əliyev tərəfindən bünövrəsi qoyulmuş köklü islahatlar kursu qətiyyətlə davam etdirilmişdir. Müstəqil Azərbaycanın daxili və xarici siyasət kursunda qazanılmış fundamental uğurlar dediklərimizə sanballı sübutdur.

***NURU MƏMMƏDOV,***
***BDU-nun Azərbaycan tarixi kafedrasının professoru, tarix elmləri doktoru, Əməkdar müəllim***

# Azərbaycan mövqelərini möhkəmləndirmək üçün bütün zəruri addımları atır





**Xəbər verildiyi kimi, mayın 19-da Rusiya xarici işlər naziri Sergey Lavrovun dəvəti ilə Moskvada Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov və Hayastanın xarici işlər naziri Ararat Mirzoyan arasında danışıqlar aparılıb. Tərəflər sülh sazişinin imzalanması və dövlətlərarası münasibətlərin normallaşdırılması məsələlərini müzakirə ediblər. Azərbaycan tərəfi növbəti dəfə bölgədə sülhün və sabitliyin bərqərar edilməsində maraqlı olduğunu nümayiş etdirib. Mövzu ilə bağlı Milli Məclisin deputatlarının fikirlərini öyrəndik.**

### Moskva görüşü Azərbaycanın uğurlarının dərki baxımından önəmlidir

Milli Məclisin deputatı Sahib Alıyev deyib ki, rəsmi Moskvanın bu danışıqların təşkilində heç də böyük irəliləyişdə maraqlı olmadığı görüşdən əvvəl məlum idi: "Bu, Rusiyanın rəsmi təmsilçilərinin açıqlamalarından, eləcə də Qarabağa göndərdikləri dələduz Vardanyanın sərsəmləmələrindən də aydın görünürdü. Təsadüfi deyil ki, Sergey Lavrov Arlinqton danışıqlarını təşkil edən ABŞ-nin məqsədinin "rusları Ermənistandan qovmaq" olduğunu deyir, onun sözçüsü Mariya Zaxarova isə Brüssel danışıqlarında "heç bir konstruktiv və real nəticə" əldə edilmədiyini vurğulayırdı. Görünür, Hayastanın baş nazirinin Brüsseldə Azərbaycanın ərazi bütövlüyünü tanıdığını, nəhayət, konkret rəqəmlərlə təsdiqləməsini və bunu Reykyavikdə də təkrarlamasını xanım Zaxarova konstruktivlik saymır. Onda sual yaranır ki, bəs konstruktivlik nədir?! Konstruktivlik dələduz Vardanyana Qarabağdakı haydillilərin heç zaman Azərbaycanın tərkibində yaşamayacaqlarını, lazım gələrsə, hətta savaşacaqlarını dedirtməkdirmi?!"

Deputat bildirib ki, Laçın yolunun başlanğıcında nəzarət-buraxılış məntəqəsi qurulandan sonra yayılan videolardan da aydın görünür ki, Rusiyanın Qarabağda müvəqqəti yerləşdirilmiş hərbi kontingenti qanunsuz silahlı birləşmələrin silah-sursatla təmin edilməsində əvvəlki rolunu davam etdirir: "Rusiya sülhməramlıları separatçıların Azərbaycan torpaqlarından çıxarılması əvəzinə güclənmələrinə çalışır. Bəlkə konstruktivlik budur?! Fikrimcə, rəsmi Moskvanın bu görüşü təşkil etməkdə məqsədi münasibətlərin normallaşmasına çalışmaq deyil, Azərbaycanla Hayastan arasında gedən danışıqları nəzarətdə saxladığını, hər vəchlə bu regionda öz mövcudluğunu qoruyacağını sərgiləməkdir. Ona görə də bu görüşün əsl məqsədinin nə olduğunu nəzərə alaraq deyə bilərik ki, Azərbaycanın digər platformalarda qazandığı uğurun Moskva görüşündə təsdiqlənməsinin və həzm etdirilməsinin özü elə növbəti uğur kimi qiymətləndirilməlidir. Bu danışıqlar Azərbaycanın indiyədək atdığı addımların nə dərəcədə dəqiq olmasının və bəzi dövlətlərin diplomatik tələlərini necə uğurla dəf etməsinin aydın dərki baxımından da çox önəmlidir".

Sahib Alıyevin sözlərinə görə, əgər Moskva istəsə, Azərbaycanla Hayastan arasında sülhün əldə edilməsinə böyük töhfə verə bilər: "Xatırlayırsınızsa, ABŞ-nin Dövlət katibi Entoni Blinken hər iki ölkədə etnik azlıqların hüquq və təhlükəsizliklərinin təminatı məsələsindən bəhs etmişdi. Moskvanın Qərbi azərbaycanlıların tezliklə öz yurd yerlərinə qayıtmalarında, ayrıca qüvvələrini orada yerləşdirməklə hüquq və təhlükəsizliklərinin təminində mühüm rol oynamaq imkanı var. Belə olan halda Rusiyanın regionda laxlayan mövqeləri möhkəmlənərdi. Bu həm də onun mənəvi borcudur. Nəzərə almaq lazımdır ki, vaxtilə azərbaycanlıların Hayastandan deportasiyası Moskvanın ya birbaşa tapşırığı, ya da icazəsi əsasında reallaşdırılmışdı. Heç kimə sirr deyil ki, bizə qarşı edilən bütün ədalətsizliklərin arxasında təkcə haylar durmur. Əgər Rusiya bu ədalətsizliyi aradan qaldırmaq istəsə, azərbaycanlılar onu heç zaman unutmaz. Fəqət Rusiya belə davranarmı?! Təəssüf ki, bu suala nikbin cavab vermək olmur".

### Ötən hər gün Hayastan üçün daha böyük təhlükə vəd edir

Milli Məclisin deputatı Fazil Mustafa deyib ki, geopolitik oyunçular arasında Azərbaycan-Hayastan münasibətlərinin tənzimlənməsi üçün vasitəçiliyi öz üzərinə götürmək uğrunda böyük rəqabət var: "Brüssel danışıqlarının ardınca Moskvada da görüşün təşkil edilməsi bunu təsdiqləyir. Özlərini məsələnin həllinə təsir göstərə biləcək əsas qüvvə kimi təqdim edən cinahlar artıq problemin həllindən çox özlərini təbliğlə məşğuldurlar. Ona görə də danışıqlar nəticəsində heç bir irəliləyiş əldə olunmur. Vasitəçilərin niyyəti Azərbaycanla Hayastan münasibətlərinin normallaşdırılması üzərində qurulmayıb. Onlar sanki "mən topladım, mən müzakirə etdim, tərəflərə mənim təsirim daha çoxdur" demək üçün yarışa giriblər. Moskva görüşü də bu niyyətli danışıqların davamıdır. Bunun nəticəsidir ki, görüşdə sadəcə ümumi sözlər deyilir, standart müzakirə aparılır".

Deputat qeyd edib ki, bəlkə də Brüsseldən gözləmək doğru deyil, amma Moskvada problem birmənalı olaraq həll edilə bilər: "Müzakirələr Moskvada imzalanmış üçtərəfli Bəyanata əsaslanmalıdır və bu mənada Rusiya öhdəliyini yerinə yetirməlidir. Mayın 19-da baş tutmuş təmaslardan da görünür ki, razılaşdırılmış məsələ yoxdur. Yalnız kommunikasiya xətlərinin açılması istiqamətində müəyyən addımlar atılsa da, bu da real deyil. Sülh müqaviləsinin imzalanması ilə bağlı isə, ümumiyyətlə, heç bir yenilik yoxdur".

Fazil Mustafa vurğulayıb ki, Hayastanın guya sülh müqaviləsinin imzalanmasına toplumun hazır olmaması ilə bağlı fikri qabartması səhv yanaşmadır: "Cəmiyyət siyasi proseslərə nə vaxt hazır olur ki?! Bunu tənzimləmək siyasi liderlərin işidir. Vaxtı gələndə cəmiyyət dəyişiklikləri real vəziyyət kimi qəbul edir. Əgər cəmiyyətin öhdəsinə buraxılsa, problem heç 100 ilə də həllini tapmaz. Lakin burada ötən hər gün Hayastan üçün daha təhlükəlidir. Nəzərə almaq lazımdır ki, Azərbaycan bu müddətdə bölgədə mövqelərinin möhkəmlənməsi üçün bütün zəruri addımları atır".

***Nəzrin QARDAŞXANOVA, "Azərbaycan"***

# "Sülh" istəyən Hayastan niyə silahlanır?

## Real faktlar Ermənistanın regionda təhlükəsizliyin təmin olunmasında maraqlı olmadığını göstərir

**"Bu gün Ermənistanda revanşist qüvvələr baş qaldırmaqdadır, ölkəmizə qarşı ərazi iddiaları davam edir. Ermənistanın sürətlə silahlanması yeni təhlükələr yaradır. Əgər, doğrudan da, Ermənistan Azərbaycan ilə sülh istəyirsə, onda nə üçün 100 milyonlarla dollar dəyərində silah alır?"**

Bu sözləri Prezident İlham Əliyev Hindistanın ölkəmizdə yeni təyin olunan səfirinin etimadnaməsini qəbul edərkən deyib. Dövlət başçımız qeyd edib ki, bu siyasət bölgə üçün yeni təhdidlərə gətirib çıxara bilər.

Mayın 14-də Brüsseldə Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin də iştirakı ilə Prezident İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyan arasında baş tutan üçtərəfli görüşdə iki ölkə arasında regionda nəqliyyat və iqtisadi əlaqələrin bərpası istiqamətində aydın irəliləyişə nail olunsa da, eyni zamanda Hayastan Azərbaycanın 86,600 kvadratkilometr ərazisini tanıdığını bildirsə də, digər tərəfdən də silahlanmaya davam edir. Maraqlısı odur ki, Brüssel görüşündən sonra Nikol Paşinyan hökumət iclasında çıxışında da Ermənistan və Azərbaycanın bir-birinin ərazi bütövlüyünü tanımasını mühüm addım adlandırıb və bunun regionda sabitliyin bərqərar olmasına və sülh müqaviləsinin mətnini yekunlaşdırmağa imkan verəcəyini bildirib. O qeyd edib ki, növbəti addım delimitasiya komissiyasının formalaşdırılması üçün əsasların müəyyən edilməsi olmalıdır.

Hər zaman iki və üçtərəfli görüşlərdə əldə edilən razılıqlar və danışıqlardan sonra Paşinyanın normallaşma istiqamətində müsbət sözlər dediyinin, sülhün vacibliyini qeyd etdiyinin şahidi oluruq. Amma bunların hamısı sadəcə sözdə qalır. Praktik olaraq Ermənistanın 2020-ci il 10 noyabr Bəyanatından irəli gələrək üzərinə götürdüyü öhdəliklərdən tutmuş həm Soçi, həm Brüssel görüşlərində, həm də Praqa danışıqlarında gəlinən razılıqların heç birini əməldə etmədiyini görürük.

Elə görüşlərdən sonra şərti sərhəddə təxribatlar törətməsi ermənilərin çirkin xislətindən xəbər verir. Bunu sülhə maraqlı olmayan Ermənistanın silahlanmaya davam etməsi də təsdiqləyir.

### Bölgə üçün yeni təhdid

Cənubi Qafqazda sülhün və təhlükəsizliyin bərqərar olmasını istəməyən qüvvələr də az deyil. Onlar da hər sülh danışıqları ərəfəsində Ermənistana havadarlıq edərək, onu silahlandıraraq yeni təxribatlara daha da həvəsləndirirlər. Bununla da Azərbaycanın regionda sülh və sabitliyi dəstəkləyən səylərinin qarşısını almağa, Hayastanı isə silahlandırmaqla sülh sazişi imzalanmasını ertələməyə çalışırlar.

Azərbaycan Ermənistanla şərti sərhəddə, Laçın yolunun başlanğıcında öz sərhəd-buraxılış məntəqəsini quranadək Ermənistanın Rusiya sülhməramlılarının dəstəyi ilə Qarabağa silah-sursat, terrorçu qüvvələr daşıdığı müşahidə edilmişdi. Bu, Laçın-Xankəndi yolunun başlanğıcında sərhəd-buraxılış məntəqəsi qurmağımızı şərtləndirmişdi.

Mayın 19-da sülh müqaviləsi imzalamaq istəyini ifadə edən Ermənistanın Rusiya sülhməramlılarının dəstəyi ilə növbəti daşımalar həyata keçirdiyi ilə bağlı videogörüntülər yayılıb. Kadrlarda qeyri-qanuni erməni silahlı birləşmələrinin sülhməramlıların zirehli texnikasının müşayiəti altında Xankəndi-Kərkicahan-Xəlfəli yolu ilə növbəti dəfə hərbi yük daşıdığı aydın görünür. Yəni bu, bir daha göstərir ki, Ermənistan Azərbaycanla sülh müqaviləsi imzalamaq niyyətində deyil.

Ümumiyyətlə, bu ölkə Cənubi Qafqazda sabitliyin olmasının tərəfdarı deyil. Amma bu, hər şeydən öncə Hayastanın özü üçün ağır nəticələr verə bilər. Təhlükəsizliyin təmin olunması, kommunikasiyaların inkişafı region dövlətlər üçün vacibdir, bunun faydası olar. Bəzi dövlətlər Cənubi Qafqazda sabitliyin bərpasında maraqlı olmasa da, region dövlətləri üçün bu, çox əhəmiyyətlidir.

Bu baxımdan Azərbaycan Prezidenti dəfələrlə Ermənistana çağırış və xəbərdarlıq edib ki, tezliklə Azərbaycanın 5 prinsipi əsasında sülh müqaviləsini imzalamaq lazımdır. Əks halda yenidən "dəmir yumruğ"u dadacaqlar. Silahlanma ilə nəsə əldə edəcəyini düşünən Ermənistan unudur ki, nə yeni təxribatlar, nə də sülh sazişini gecikdirmək ona nəsə qazandıracaq. Əksinə, hər dəfə uduzan tərəf olacaq.

Döyüş, müharibə hər şeydən əvvəl Ermənistanın iqtisadiyyatını tənəzzülə aparır və ölkədə narazı qüvvələrin sayını artır. Onlar üzərinə götürdükləri öhdəlikləri yerinə yetirməli, hər danışıqlar masasından qalxdıqdan sonra təxribata əl atmamalı, gəlinən razılıqlara əməl etməlidirlər.

Ümumilikdə Hayastanın gələcəyi, inkişafı Azərbaycanla sülh sazişi imzalayaraq regionda barışın və təhlükəsizliyin bərqərar olmasından keçir. Bunu ermənilərin vaxt uzatmadan anlamaları mütləqdir. Azərbaycanın ərazi bütövlüyünü tanıyan Ermənistan əməldə də bunu sübut etməli, qanunsuz hərbi birləşmələrini Qarabağdan çıxarmalı və ərazimizə silah-sursat daşınmasını dayandırmalıdır.

***Əsmər QARDAŞXANOVA, "Azərbaycan"***

# Türkiyə güclənir, müttəfiqlərini də gücləndirir






*Əvvəli 1-ci səh.*

Son 20 il ərzində Türkiyə misilsiz inkişafa nail olub. Qətiyyətli və məqsədyönlü qərarların verilməsi sayəsində Türkiyə dünya miqyasında lider ölkələrdən birinə çevrilib. Bir çox qlobal məsələdə rəsmi Ankaranın mövqeyi mütləq nəzərə alınır, dünya gücləri bu dövlətlə hesablaşır, Türkiyənin söz sahibi olduğu hər məqamda görünür. Bu baxımdan Türkiyə bölgədə sülhün, sabitliyin, təhlükəsizliyin mühüm qarantıdır.

Qardaş ölkə türk dünyasının birləşməsi istiqamətində də mühüm addımlar atır. Türkdilli ölkələrin birliyi, müxtəlif sferalarda qarşılıqlı əməkdaşlığı, bir-birinə dəstəyi istiqamətində görülən işlərlə son onilliklərdə Azərbaycan və Türkiyə türk dünyasının əsas birlik və əməkdaşlıq mərkəzlərinə çevrilib. Türk dünyası geniş coğrafiyanı, yüksək potensialı, zəngin təbii qaynaqları, eləcə də böyük hərbi gücü özündə birləşdirir. Bu ölkələr arasında əldə olunmuş əməkdaşlıq mühiti inkişaf etdirilərsə, daha da dərinləşdirilərsə, dünyamızda sülhün, təhlükəsizliyin, inkişafın, insanların rifah və xoşbəxtliyinin təmin olunması üçün çox böyük bir imkan yaranar. XXI əsrin türk əsrinə çevrilməsi, Türk Dövlətləri Təşkilatının bəşəriyyətin gələcəyi ilə ali niyyətlərinin reallaşması zaman-zaman münaqişələrdən, müxtəlif ziddiyyətlərdən əziyyət çəkən dünyamızda xoş bir nizam yaradar.

### Azərbaycan və Türkiyə müdafiə sənayesi sahəsində yeni əməkdaşlıqlara imza atır

Dövlət rəhbərimiz Azərbaycanda "Bayraktar" mərkəzinin yaradılması haqqında razılığın əldə olunduğunu bildirdi. Yaxın gələcəkdə ölkəmizdə belə bir mərkəz təşkil ediləcək və burada təhsil və xidmətlə yanaşı, istehsal da həyata keçiriləcək.

Builki "TEKNOFEST"in bir özəlliyi də bunda idi ki, burada "Baykar" şirkətinin öz imkanları hesabına inkişaf etdirdiyi "Bayraktar Kızılelma" pilotsuz milli döyüş təyyarəsi, "Anadolu" adlı çoxfunksiyalı amfibiya tipli döyüş gəmisi, həmçinin Türkiyə istehsalı olan yeni nəsil "Altay" tankı və qardaş ölkənin bu yaxınlarda istehsalına başladığı "Togg" avtomobilləri də nümayiş etdirilirdi. Azərbaycan Prezidenti bu məqama xüsusi diqqət yönəldərək ümid etdiyini bildirmişdi ki, yaxın gələcəkdə "Kızılelma" Azərbaycanın səmasında da olacaq: "Kızılelma" havada, "Altay" və "Togg" quruda, "Anadolu" dənizdə - bugünkü Türkiyə budur", - deyə dövlət rəhbərimiz xüsusi vurğulamışdı.

Verilən məlumatlara görə, bu gün Türkiyə NATO üzvü olan ölkələr arasında ABŞ Silahlı Qüvvələrindən sonra ən böyük ikinci hərbi gücdür və NATO-nun nüvə paylaşma siyasətinin bir hissəsi olan beş ölkədən biridir. Hazırda ölkənin müdafiə sənayesinin inkişafı, hərbi qüdrətinin artırılması istiqamətində mühüm proqramlar uğurla həyata keçirilir. Qardaş ölkə müdafiə imkanlarını 80 faiz öz məhsulları ilə təmin edir. Türkiyə öz SİHA-ları (silahlı pilotsuz uçuş aparatları) ilə dünyada ilk üç dövlətdən biridir. Bu isə böyük güc, qüdrət deməkdir.

Prezident İlham Əliyev xalqımızın Ümummilli Lideri, müasir Azərbaycan dövlətinin banisi və qurucusu Heydər Əliyevin Türkiyə və Azərbaycan münasibətləri haqqında məşhur kəlamını yada salmışdı: "Heydər Əliyev demişdir: Türkiyə və Azərbaycan bir millət, iki dövlətdir. Bu gün biz bunu sübut edirik. Bu gün bütün atalarımızın, əcdadlarımızın ruhu şaddır. Çünki Türkiyə və Azərbaycan bir yerdədir. Atam demişkən, "Bir millət, iki dövlət", əlavə də etmək istəyirəm, "Bir yumruq!"

### Münasibətlərdə yeni səhifə

Azərbaycan Prezidentinin bu fikirləri tarixi reallıqlara əsaslanır. Ölkələrimiz xoş günlərdə də, sınaq anlarında da daim bir-birinin yanındadırlar, bir-birinə həyandırlar. Türkiyə Azərbaycanın haqq mövqeyini daim dəstəkləyib. Qlobal nüfuzu, qüdrəti ilə bizə ruh verib. Bunu 44 günlük Vətən savaşında bir daha duyub hiss etdik. İkinci Qarabağ savaşının ilk dəqiqələrindən son dəqiqələrinə qədər qardaş ölkə hər an bizim yanımızda oldu. Verilən açıqlamalarla, mesajlarla Azərbaycanı birmənalı dəstəklədi. Azərbaycanın tək olmadığını, Türkiyənin yanımızda olduğunu göstərdi və bu, müxtəlif üsullarla bizim haqq savaşımızı əngəlləmək istəyənlərə, yolumuzdan döndərməyə cəhd edənlərə mesaj olmaqla xalqımıza əlavə güc verdi, böyük ruh bəxş etdi.

Vətən müharibəsindən az sonra, iki il əvvəl Qarabağın tacı Şuşada Azərbaycan və Türkiyə arasında Şuşa Bəyannaməsinin imzalanması isə münasibətlərimizdə yeni bir səhifə açdı. Azərbaycan və Türkiyə münasibətləri rəsmən strateji müttəfiqlik səviyyəsinə yüksəldi. "O tarixi bəyannamənin Qarabağın tacı olan Şuşada imzalanmasının xüsusi önəmi var. Şuşa Azərbaycan xalqının əziz şəhəridir, türk dünyasının əziz şəhəridir. Şuşanın işğaldan azad edilməsi nəticəsində Azərbaycan öz ərazi bütövlüyünü bərpa etmişdir. Türkiyə, onun Cümhurbaşqanı, qardaş türk xalqı daim bizim yanımızda idi", - deyə Azərbaycan Prezidenti çıxışında bəyan etdi.

### Azərbaycan xalqı dostluğun və qardaşlığın nə demək olduğunu göstərdi

Bu ilin fevralında Türkiyənin ayrı-ayrı bölgələrində baş vermis dəhşətli zəlzələ zamanı Azərbaycanın qardaş ölkəyə yardıma tələsməsi, Türkiyəyə ilk və ən çox kömək göstərən ölkələrdən olması, bu təbii fəlakətin Azərbaycan cəmiyyətində yaratdığı narahatlıq, təşkil edilən yardım kampaniyaları, vətəndaşlarımızın o ağır günlərdə qardaş Türkiyəyə kömək üçün nələrsə etmək istəyi ilə atdıqları addımlar Azərbaycan-Türkiyə qardaşlığının bütün rəsmi səviyyələri, siyasi-diplomatik münasibətləri də adlayaraq ruh səviyyəsinə keçdiyini, Azərbaycan-Türkiyə sevgisinin hər iki qardaş ölkədə insanların içindən, qəlbindən gəldiyini göstərir. Bu mənada Azərbaycan dövlətinin zəlzələnin baş verdiyi Kahramanmaraş vilayətində min evdən, məktəb, məscid və digər infrastruktur obyektlərindən ibarət şəhər kompleksinin inşasına qərar verməsi, "TEKNOFEST" çərçivəsində onlayn rejimdə kompleksin təməlinin qoyulması ürəyimizdən xəbər verdi.

Azərbaycan Prezidentinin "TEKNOFEST" festivalında iştirakının, dövlət rəhbərimizin çıxışının Türkiyə mediasında geniş işıqlandırılması da qardaş ölkədə Azərbaycana olan xoş münasibətdən, Prezident İlham Əliyevin lider kimi şəxsiyyətinə, gələcəyə baxışına böyük maraqdan irəli gəlir.

### Gələcəyə doğru birlikdə

Gələcək texnoloji inkişafdan çox asılıdır. Belə bir reallığı və perspektivi hər birimiz gündəlik həyatımızda duyub hiss edirik. Bu baxımdan "TEKNOFEST" sadəcə Türkiyə üçün deyil, regional və beynəlxalq təsirləri ilə Azərbaycan və digər ölkələr üçün də çox böyük önəm daşıyır. Bu, bütün dünyada aerokosmik və texnologiya sahələrinin inkişafına və texnologiya tətbiqlərinə həsr olunmuş dünyanın ən böyük festivalıdır. Bu festival Türkiyədə hər il keçirilir və dünya texnologiya sektorunun ən maraqlı yeniliklərini bir araya gətirir.

"TEKNOFEST" ölkələr üçün texnologiya inkişafını müzakirə və tətbiq etmək baxımından bir platformadır. Gənclərin texnologiyaya həvəsləndirilməsi və bu sahədə qabaqcıl təcrübələrini təqdim etməsi də festivalın əsas üstünlüklərindəndir.

"TEKNOFEST" öz məqsədinə uyğun olaraq tələbələr, mütəxəssislər, texnologiya sənayesində fəaliyyət göstərənlər və şirkətlər arasında əlaqələrin qurulmasına imkan yaradır. Həmçinin bütün dünyada texnologiya sahəsində inkişaf etmək istəyən startaplar və şirkətlər üçün geniş üfüqlər açır.

Möhtəşəm tədbir texnologiya və aerokosmik sahələrdə inkişaf etmək istəyən hər kəs üçün mühüm bir platformadır. Festival inkişaf etmiş texnologiya sənayesinə sahib ölkələr arasında təcrübə mübadiləsini və inkişaf sahələrində əməkdaşlığı mümkün etməklə, texnologiya dünyasında fəaliyyət göstərən insanlar arasında əlaqələrin qurulmasına imkan verir, onları bir araya gətirir. Beləliklə, iştirakçılar texnologiya sahəsində məlumatlı olur, yenilikləri izləyir və texnoloji inkişafları izləyən ölkələr sırasında olmağa çalışırlar.

Bir fakt xüsusi qeyd olunmalıdır ki, Türkiyədə hər il keçirilən "TEKNOFEST" festivalında müdafiə sənayesi yeni silahlar, texnikalar təqdim edir. İstanbul şəhərində, Atatürk Hava Limanında Türkiyənin Havaçılıq, Kosmos və Texnologiya Festivalı - "TEKNOFEST-2023"də də bu hal yaşandı. 102 fərqli kateqoriyada 41 yarış üzrə 1 milyondan çox layihənin iştirak etdiyi festivalda "Bayraktar Kızılelma", "Bayraktar Akıncı" və ilk dəfə olaraq "Bayraktar-TB3" pilotsuz uçuş aparatları ziyarətçilərə təqdim olundu. Ölkənin quru qoşunları da hər cür müasir müdafiə sistemləri ilə təchiz edilib. Belə ki, quru qoşunlarının bazasına milli imkanlarla istehsal edilən "Yeni Altay" tankları daxil olub. Bu tank ilk prototipindən fərqli olaraq müasir döyüş şərtlərinə uyğun olaraq yenilənib.

Bu festival xüsusilə gənclərə və tələbələrə texnologiya sahəsində karyera qurmaq fürsətləri yaradır. Müsabiqələr, seminarlar və digər belə tədbirlər iştirakçılara öz bacarıqlarını artırmağa və texnoloji inkişafın önündə irəliləməyə yol açır.

Beləliklə, "TEKNOFEST" Azərbaycan və digər ölkələr üçün texnoloji inkişaf proseslərini yaxından izləmək və öz texnoloji inkişaflarını müasir trendlərə uyğunlaşdırmaq, bu sahədə əməkdaşlıqları inkişaf etdirmək üçün çox mühüm imkandır.

Onu da qeyd edək ki, ötən il mayın 26-29-da "TEKNOFEST" ilk dəfə Türkiyədən kənarda - Azərbaycanda keçirildi. "TEKNOFEST Azərbaycan"ın açılış mərasimində Nobel mükafatı laureatı Əziz Səncər də iştirak edirdi. "TEKNOFEST Azərbaycan" festivalını ümumən 300 minə yaxın insan ziyarət etmiş, festival çərçivəsində üç beynəlxalq tədbir və səkkiz texnoloji müsabiqə təşkil olunmuşdu. Həmin müsabiqələrdə 5 mindən çox gəncin formalaşdırdığı 1000-dən çox komanda yarışmışdı.

İstanbulda keçirilən "TEKNOFEST" festivalı da Azərbaycan və Türkiyənin hər zaman bir yerdə olduğunu, bütün dünya üçün birliyin, bərabərliyin mükəmməl örnəyini yaratdığını, ortaq keçmişdən ortaq gələcəyə doğru böyük yolda bərabər irəlilədiyini növbəti dəfə sərgilədi.

***İradə ƏLİYEVA, "Azərbaycan"***

İŞİMİZ, GÜZƏRANIMIZ

# BTC Avrasiya məkanındakı analoji kəmərlərdən unikallığı ilə seçilir

**Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan (BTC) əsas ixrac boru kəmərinə Səngəçal terminalından ilk neftin vurulmasından 18 il keçir. 25 may 2005-ci il həm də BTC-nin Azərbaycan hissəsinin istifadəyə verildiyi gündür. Bütün regionun həyatı üçün mühüm əhəmiyyət daşıyan bu hadisə ilə bağlı Bakıda və Səngəçalda keçirilən tədbirlərdə Azərbaycan Prezidenti İlham Əliyevlə yanaşı, Türkiyənin, Gürcüstanın və Qazaxıstanın dövlət başçıları da iştirak etmişdilər.**






2005-ci ilin mayında bu boru xəttinə ilk neft vurulmuşdur

İllər keçdikcə BTC daha böyük əhəmiyyət kəsb edir. Əvvəla ona görə ki, təkcə ölkəmizə deyil, bütün regiona gəlir, xeyir-bərəkət gətirir. Kəmər istismara veriləndən sonrakı illərdə ölkəmiz böyük həcmdə valyuta ehtiyatları əldə edib. Azərbaycan dövləti bu ehtiyatlardan səmərəli istifadə edərək onları ölkənin əsas inkişaf istiqamətlərinə yönəldib.

BTC-nin bir əhəmiyyəti də ondan ibarətdir ki, özündən sonra neçə-neçə digər layihəyə yol açıb. Başqa sözlə, BTC-dən başlanan yol geniş dəhlizlərə qovuşub. BTC haqlı olaraq dünya enerji təhlükəsizliyinin əsas elementlərindən biri sayılır.

BTC-ni üçüncü minilliyin nəhəng mühəndis qurğusu adlandırırlar. Çünki bu boru xətti bütün Avrasiya məkanında mövcud olan analoji kəmərlər arasında öz unikallığı ilə seçilir.

Azərbaycanın, Gürcüstanın və Türkiyənin ərazisindən keçərək 1768 kilometr məsafə qət edən bu xəttin boruları bütün marşrut boyu torpaq altında basdırılıb. Bu da onun təhlükəsizliyini təmin edir. Kəmərin bir sıra əzəmətli yerüstü qurğuları, o cümlədən 8 nasos stansiyası var. Səngəçaldakı baş nasos stansiyasından sonra ikinci stansiya yenə də Azərbaycanın ərazisində - Yevlaxda yerləşir. İki stansiya Gürcüstanda, dördü isə Türkiyədədir. Xəttin gündəlik ötürücülük gücü 1,2 milyon barel təşkil edir. Keçdiyi ərazilərin coğrafiyasına görə, kəmər 46, 42 və 34 düymlük borulardan çəkilib.

BTC öz marşrutu boyu bir neçə dağ silsiləsi qət edir, o cümlədən 2830 metr yüksəkliyə qalxır, eləcə də 3000 yol, dəmir yolu, yeraltı və yerüstü kommunikasiya xətti, eni 500 metrədək çatan Ceyhan çayının keçidi də daxil olmaqla 1500-dən çox su hövzəsi ilə kəsişir. Ceyhana yaxınlaşarkən kəmər yenidən dəniz səviyyəsinə enir.

BTC-ni "Üç dənizin əfsanəsi", yəni Xəzəri, Qara dənizi və Aralıq dənizini birləşdirən polad kəmər də adlandırırlar. O, eləcə də xalqları və ölkələri bir-birinə yaxınlaşdırır. Azərbaycanın 13 rayonundan - Qaradağ, Abşeron, Hacıqabul, Ağsu, Kürdəmir, Ucar, Ağdaş, Yevlax, Goranboy, Samux, Şəmkir, Tovuz və Ağstafadan keçən kəmər ölkəmizdə 443, Gürcüstanın 7 bölgəsində 249 və Türkiyənin 9 rayonunda 1076 kilometrlik yol boyu uzanır.

Xatırladaq ki, BTC Ko.-nun səhmdarları bp (30,10 faiz), SOCAR (25 faiz), MOL (8,90 faiz), "Ekvinor" (8,71 faiz), TPAO (6,53 faiz), "Eni" (5 faiz), "TotalEnergies" (5 faiz), İTOÇU (3,40 faiz), İNPEKS (2,50 faiz), "EksonMobil" (2,50 faiz) və ONGCVideş (2,36 faiz) şirkətləridir.

BTC tam sistem kimi 2006-cı ilin ortalarından fasiləsiz və təhlükəsiz fəaliyyət göstərir. Operator olan bp şirkətinin məlumatına görə, istismara veriləndən 2023-cü ilin birinci rübünün sonunadək bu boru kəməri vasitəsilə ümumilikdə təqribən 539 milyon tondan çox (4 milyard barel) xam neft nəql edilib və Ceyhanda 5314 tankerə yüklənərək dünya bazarlarına göndərilib. BTC-nin ümumilikdə 4 milyard barel neft ixracına nail olması əlamətdar bir uğur kimi 18 yanvar 2023-cü il tarixdə qeyd edilib. Bu ilin birinci rübü ərzində BTC ilə ixrac olunmuş təqribən 7 milyon ton (təxminən 53 milyon barel) xam neft və kondensat Ceyhan terminalında 70 tankerə yüklənib və yola salınıb.

Hazırda BTC əsasən Azərbaycandan "Azəri-Çıraq-Günəşli" nefti və "Şahdəniz" kondensatı daşıyır. Bundan əlavə, BTC Xəzərin digər regional xam neft və kondensat həcmlərini (Qazaxıstan və Türkmənistan) də nəql edir.

Bakı-Tbilisi-Ceyhan kəmərinin çəkilişini tarixi hadisə adlandıran Prezident İlham Əliyev onu həmişə yüksək dəyərləndirmişdir. Dövlət başçısının dediyi kimi: "Əgər o kəmər olmasaydı, Azərbaycan öz neft və ondan sonra qaz potensialını dünya bazarlarına çatdıra bilməzdi. Beləliklə, dəhliz yaradıldı. Xəzər dənizi-Qara dəniz-Aralıq dənizi əməkdaşlıq formatı formalaşmışdır. Xəzər dənizini Aralıq dənizi ilə birləşdirən Bakı-Tbilisi-Ceyhan bu gün uğurla fəaliyyət göstərir və başqa ölkələrə də xidmət edir. Dəhliz formalaşandan sonra əlbəttə ki, Azərbaycan öz tranzit rolunu oynamağa başlamışdır. Bu gün biz qeyd edə bilərik ki, artıq Azərbaycan öz coğrafi vəziyyətindən, logistika imkanlarından tam şəkildə istifadə edir".

***Flora SADIQLI,***
***"Azərbaycan"***

## Kazanda Rusiya və Azərbaycan arasında işgüzar əlaqələr müzakirə olunub

**Azərbaycan nümayəndə heyətinin Rusiya Federasiyası Tatarıstan Respublikasının Kazan şəhərinə səfəri çərçivəsində Rusiya-Azərbaycan işgüzar görüşü keçirilib. Tədbirdə hər iki ölkədən rəsmi şəxslər və iş adamları iştirak ediblər.**

Kiçik və Orta Biznesin İnkişafı Agentliyindən (KOBİA) bildirilib ki, qurumun İdarə Heyətinin sədri Orxan Məmmədov tədbirdəki çıxışında Rusiyanın KOB sahəsində ixtisaslaşmış müvafiq qurumları ilə əlaqələr, Azərbaycan və Tatarıstan arasında kiçik və orta biznesin dəstəklənməsi sahəsində əməkdaşlıq imkanları, agentliyin dəstək və xidmətləri barədə məlumat verib.

Qeyd edilib ki, başlıca fəaliyyəti yerli KOB-ların dəstəklənməsi olan agentlik onların xarici tərəfdaşlarla əlaqələrinin inkişafına və bazarlara çıxışına da dəstək göstərir. Bu baxımdan KOBİA Rusiya sahibkarlarının yerli biznes tərəfdaşlarla əlaqələndirilməsinə də dəstək göstərə bilər. Potensial investisiya layihələri ilə bağlı məlumat mübadiləsi, perspektiv sahələrdə birgə müəssisələrin yaradılması, iş adamları arasında birbaşa əlaqə yaratmaq üçün sərgilərdə qarşılıqlı iştirak, işgüzar missiyaların təşkili, institusional əməkdaşlığın davamlı inkişafı hər iki ölkənin KOB subyektləri arasında əlaqələrin genişləndirilməsi baxımından əhəmiyyətli olacaq.

## 436 min nəfərə sosial müavinət, 370 min nəfərə Prezidentin aylıq təqaüdü ödənilib

**Bu ilin yanvar-aprel aylarında Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Sosial Müdafiə Fondu tərəfindən 436 min nəfərə sosial müavinət, 370 min nəfərə Prezidentin aylıq təqaüdü ödənilib.**




Həmin dövrdə əhaliyə sosial müavinətlər üzrə ötən ilin müvafiq dövrünə nisbətən 23 faiz çox olmaqla 326 milyon, Prezident təqaüdləri üzrə 21 faiz çox olmaqla 213 milyon manat ödənilib.

Son 4 ayda 46 min, sosial ödənişlərin elektron təyinatına başlandığı 2019-cu ildən 475 min müavinət və təqaüd təyinatı e-sistem üzərindən proaktiv qaydada həyata keçirilib.

## Özünüməşğulluq proqramı çərçivəsində yaradılan təsərrüfatların sayı artır

**Şəkinin Qoxmuq kənd sakini Lalə Məmmədsalahova 44 günlük Vətən müharibəsində şəhid olmuş Kazım Məmmədsalahovun həyat yoldaşıdır.**

Müraciətinə uyğun olaraq o, 2021-ci ildə maldarlıq zərfi üzrə aktivlərlə təmin edilərək təsərrüfatını yaradıb. Həmçinin ötən il işlə də təmin edilib.

Şəkinin Oxud kənd sakini Samirə Salamova isə özünüməşğulluq proqramı çərçivəsində keçən il dərzilik zərfi üzrə avadanlıqlarla təmin edilərək öz kiçik biznesini qurub. Hər iki proqram iştirakçısı onlara göstərilən bu sosial dəstəyə görə Prezident İlham Əliyevə minnətdarlıqlarını ifadə ediblər. Onlar qurduqları təsərrüfatlarını inkişaf etdirməyə səy göstərdiklərini vurğulayıblar.

Onu da bildirək ki, son illər müasir standartlara uyğun reabilitasiya şəraitinin yaradıldığı Şəki Reabilitasiya Mərkəzində yerli və ətraf rayonlar üzrə əlilliyi olan şəxslər effektiv fizioterapevtik üsulların tətbiqi əsasında tibbi-sosial reabilitasiya xidmətləri ilə təmin edilirlər.

## Ayda orta hesabla nə qədər pul xərcləyirik



**Yanvar-aprel aylarında istehlakçıların tələbatlarının ödənilməsi məqsədilə satılmış malların və göstərilmiş xidmətlərin dəyəri 20,5 milyard manat olmaqla, 2022-ci ilin yanvar-aprel aylarına nisbətən müqayisəli qiymətlərlə 4,9 faiz artıb.**

Dövlət Statistika Komitəsinin məlumatına görə, qeyri-dövlət sektorunun təsərrüfat subyektləri tərəfindən satılmış malların və göstərilmiş xidmətlərin dəyəri 2022-ci ilin yanvar-aprel ayları ilə müqayisədə 4,5 faiz artaraq 19,7 milyard manata bərabər olub. Onun 45,6 faizi fərdi sahibkarların fəaliyyəti sayəsində formalaşıb.

Hesabat dövründə bir istehlakçı orta hesabla ayda 505,2 manat və ya 2022-ci ilin eyni dövrü ilə müqayisədə nominal ifadədə 79,6 manat çox vəsait xərcləyib.

## Azərbaycan neftinin qiyməti ucuzlaşıb

**Mayın 19-da İtaliyanın Auqusta limanında CIF bazisi üzrə Azərbaycanın "Azeri Light" markalı neftinin bir barelinin qiyməti 0,15 dollar ucuzlaşaraq, 78,81 dollar olub. Trend bu barədə ölkənin neft-qaz bazarındakı mənbəyə istinadən xəbər verib.**



Türkiyənin Ceyhan limanında FOB bazisi üzrə "Azeri Light" markalı neftin bir barelinin qiyməti 0,15 dollar ucuzlaşaraq 76,82 dollar olub.

Azərbaycanın Rusiyanın Qara dənizdəki Novorossiysk limanından Bakı-Novorossiysk boru kəməri ilə satdığı URALS markalı neftin bir barelinin qiyməti əvvəlki göstəricidən 0,02 dollar bahalaşaraq 50,83 dollar olub.

Şimal dənizindən hasil edilən "Brent Dated" etalon növlü neftin bir barelinin qiyməti aprelin 19-da 0,02 dollar ucuzlaşaraq 75,93 dollar olub.

# Başqa yol yoxdur

Zamanın və reallığın çağırışlarına cavab vermək lazımdır

**Ötən əsrin sonlarına qədər aqrar elm dünyada ən az inkişaf etmiş sahələrdən olub. Çünki həmişə sənayenin inkişafına xüsusi diqqət yetirilib. Lakin son zamanlar bu sahəyə diqqət artmağa başlayıb. Səbəb dünyada əhalinin sürətlə artması, kənd təsərrüfatı məhsullarına, yəni ərzağa olan tələbatın yüksəlməsidir.**



Əvvəllər daha çox sahədə əkin aparılaraq daha çox məhsul götürmək kimi klassik üsuldan istifadə olunurdu. Yeni ənənədə isə az sahədən daha çox məhsul götürmək konsepsiyasına üstünlük verilir və bu zaman iki sahənin inkişafı əsas götürülür - kənd təsərrüfatında yeni texnologiyaların tətbiqi və daha məhsuldar toxum və damazlıqların yaradılması. Bunların sayəsində dünyada aqrar sektorda son dövrlər məhsuldarlıq sürətlə artmağa başlayıb. Məsələn, əvvəllər dünya üzrə taxılçılıqda ən yüksək məhsuldarlıq 40-50 sentner olduğu halda, indi bu rəqəm 70-90 sentnerə çatıb.

Digər tərəfdən aqrar sektorun kapitallaşmasına maraq artıb. Belə ki, dünyada əhalinin ərzağa olan tələbatının yüksəlməsi kənd təsərrüfatını rentabelli sahəyə çevirib. Bu üzdən aqrar elmin aktuallığı da gündəmə gəlib. Elə bu sahəyə sərmayə qoyuluşunun artması da bununla bağlıdır. Başqa bir amil də var.

Rusiya-Ukrayna müharibəsi onu da göstərdi ki, ərzaq məhsulları da neft-qaz kimi siyasi təzyiq vasitəsinə çevrilə bilir. Yəni dövlətlər öz siyasi ambisiyalarına çatmaq üçün ərzaqdan təzyiq vasitəsi kimi istifadə etməkdən çəkinmirlər.

Bütün bu səbəblərdən Azərbaycanda ərzaq təhlükəsizliyini təmin etmək aparılan aqrar islahatların əsas hədəfinə çevrilib və son illər bu sahədə xeyli irəliləyişə nail olunub. Statistika da göstərir ki, bir çox vacib kənd təsərrüfatı məhsuluna olan daxili tələbat artıq yerli istehsal hesabına ödənilir. Eyni zamanda biz aqrar sektorda ixracın həcmini artırır, coğrafiyasını genişləndiririk.

Aydındır ki, aqrar sektorda istifadə olunan yeni texnika və texnologiyaların qiyməti fermerlərimizin böyük əksəriyyəti üçün əlçatan deyil. Amma bu zaman "Aqroservis" ASC köməyə gəlir. ASC-nin güzəştləri sayəsində fermerlərimiz yüksək texnologiyalı kənd təsərrüfatı texnika və avadanlıqlarından istifadə etmək imkanı qazanır. Həm də bu hesaba indi ölkəmizdə bir çox iri və orta səviyyəli aqrar təsərrüfatlar fəaliyyət göstərir və onların qabaqcıl kənd təsərrüfatı texnika və avadanlıqlarını almaq imkanı var. Elə iki gün əvvəl Bakıda işini başa çatdırmış 16-cı Azərbaycan Beynəlxalq Kənd Təsərrüfatı Sərgisi bu cür təsərrüfatlara birbaşa yeni məhsullarla tanış olmağa şərait yaratmışdır.

Yeri gəlmişkən qeyd edək ki, "Caspian Agro" sərgisi kənd təsərrüfatı sənayesinin aparıcı iştirakçılarını, yerli və xarici ekspertləri, o cümlədən idxalçılar, ixracatçılar, distribütorlar, topdan və pərakəndə ticarət nümayəndələri, həmçinin fermerlər də daxil olmaqla, minlərlə peşəkar ziyarətçi auditoriyasını bir yerə toplamışdı. İştirakçılar arasında Azərbaycanla yanaşı, ABŞ, Böyük Britaniya, Almaniya, İtaliya, Niderland, Çexiya, Polşa, Avstriya, İspaniya, Latviya, Estoniya, Gürcüstan, Qazaxıstan, Rusiya, Türkiyə, İsrail və Hindistan şirkətləri yer almışdı. Ümumiyyətlə, iştirakçıların 71 faizini xarici şirkətlər təşkil edirdi.

Sərgidə kənd təsərrüfatında tətbiq olunan müasir innovativ texnologiyalar, texnikalar və suvarma sistemləri nümayiş olunurdu. İştirakçılar Elektron Kənd Təsərrüfatı, robototexnika, pilotsuz uçuş aparatları, IT xidmətləri, süni intellekt, alternativ enerji mənbələri kimi smart bölmələrdə maraqlı məlumatlar əldə etdilər.

Sərgi ilə bağlı KOBİA İdarə Heyətinin sədri Orxan Məmmədov bildirmişdir ki, kənd təsərrüfatı və qida sənayesi kiçik və orta biznes subyektlərinin daha çox fəaliyyət göstərdiyi sektorlardandır: "KOBİA onları müxtəlif xidmətlər və mexanizmlər çərçivəsində dəstəkləyir. Dövlət-özəl əməkdaşlığı çərçivəsində reallaşdırılan layihələr qarşıdakı illərdə də aqrar və qida sənayesinin, nəticədə isə ölkə iqtisadiyyatının inkişafına öz müsbət töhfəsini verəcək".

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

## Sığortaçıların attestasiyasının nəticələri açıqlanıb

**Sığorta sahəsi üzrə Azərbaycan Respublikasının Mərkəzi Bankında (AMB) attestasiyalar keçirilib.**

AMB-dən AZƏRTAC-a bildirilib ki, nəticələrə əsasən, attestasiyada iştirak edən, 10 namizəddən 1-i keçid balını toplayaraq attestasiyanı müvəffəqiyyətlə başa vurub.

Qeyd edək ki, "Sığorta sahəsində attestasiyanın təşkili və keçirilməsi" Qaydasının 4,6-cı bəndinə əsasən, sığortaçıda rəhbər vəzifəyə təyinatı nəzərdə tutulan şəxs və sığorta vasitəçiliyi fəaliyyətinə lisenziya almaq üçün attestasiyada iştirak edən şəxs 70 test tapşırığına düzgün cavab verdikdə attestasiyadan keçmiş hesab olunur.

## Vatsapdan təhlükəsiz istifadə qaydaları hansılardır

**Vatsap hesabınızın təhlükəsizliyini təmin etmək üçün bəzi məqamlara diqqət yetirin.**

AZƏRTAC Elektron Təhlükəsizlik Xidmətinin məlumatına istinadən xəbər verir ki, vatsap hesabınızın təhlükəsizliyindən əmin olmaq üçün sadalananlara xüsusi diqqət yetirməyiniz tövsiyə olunur:

- İkifaktorlu təsdiqləmə funksiyasını aktivləşdirin;
- Tətbiqi ən son versiyaya yeniləyin;
- Mesajların tərkibindəki şübhəli keçidlərə daxil olmayın və faylları yükləməyin;
- Təsdiqləmə kodunu heç kəslə paylaşmayın.






# Gənclik






● Gələcəyə dəstək



## Peşəkar insan ehtiyatı cəmiyyətin əsas güc qaynağıdır

**Tarix boyu hər bir xalq özünün xoşbəxt gələcəyə olan ümidlərini və milli strategiyasını, ilk növbədə gənc nəsillər üzərində qurur. Onların sağlam, milli ruhda yetişdirilməsi hər bir ölkə üçün prioritetdir. Odur ki, gənclər cəmiyyətin ən dinamik zümrəsi olmaqla ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatın təşəkkülündə fəal iştirak edir, ölkədə baş verən bütün proseslərin mərkəzində dayanırlar.**

Bu il Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100-cü ildönümü münasibətilə Azərbaycanda "Heydər Əliyev İli" elan edilmişdir. Bu, dahi şəxsiyyətin fəaliyyətinin ayrı-ayrı istiqamətlərinin daha dərindən araşdırılmasına, zəngin irsinin əhatəli şəkildə tədqiqinə geniş imkanlar yaratmışdır. Azərbaycan Respublikasının bugünkü tərəqqisində, beynəlxalq aləmdə tanınmasında Ümummilli Liderin əvəzsiz rolu olmuşdur. Dövlət başçısının sərəncamında da vurğulandığı kimi, Heydər Əliyev Azərbaycan Respublikasının suverenliyini, müstəqilliyini və beynəlxalq aləmdə nüfuzunu gücləndirmiş böyük şəxsiyyətdir: "Dövrünün ən nüfuzlu siyasətçiləri ilə bir sırada duran Heydər Əliyev Azərbaycanın müasir simasının, xalqımızın zəngin dəyərlərinin tanıdılması və ölkəmizin beynəlxalq münasibətlər sistemində layiqli mövqe qazanmasında müstəsna rol oynamışdır. Ermənistan-Azərbaycan münaqişəsinin beynəlxalq hüququn norma və prinsipləri əsasında həlli Ulu Öndərin qarşıya qoyduğu başlıca vəzifə olmuş, ölkəmizin bütün resursları, xalqımızın potensialı tarixi ədalətin bərpası üçün səfərbər edilmişdir. Ulu Öndərin şah əsəri olan güclü Azərbaycan dövləti öz suverenliyini, müstəqilliyini qorumağa qadir olduğunu 44 günlük Vətən müharibəsində şanlı zəfər qazanmaqla sübuta yetirmişdir".

Dahi şəxsiyyət Heydər Əliyevin zəngin irsinin və peşə fəaliyyətinin əsas tərkib hissələrindən biri də elm, təhsil və gənclər siyasəti olmuşdur. 2 fevral tarixinin Gənclər Günü kimi elan olunması Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Ümummilli Liderin rəhbərliyi dövründə ölkə gəncləri onun diqqət və qayğısını daim öz üzərlərində hiss ediblər. 1994-cü ildə böyük rəhbərin sərəncamı ilə Gənclər və İdman Nazirliyi yaradılıb.

1996-cı ildə Azərbaycan gənclərinin 1-ci forumu keçirilib. 1997-ci ildən Prezidentin sərəncamı ilə 2 fevral Azərbaycanda Gənclər Günü kimi qeyd olunmağa başlanıb. Bu gün Azərbaycanda həm mənəvi, həm də fiziki cəhətdən sağlam gənclər yetişir. Onlar elm, mədəniyyət, səhiyyə, sənaye və digər sahələrdə yüksək nailiyyətlər əldə edir, mötəbər idman yarışlarında, Olimpiya oyunlarında ölkəmizin şərəfini qoruyaraq bayrağımızı yüksəklərə qaldırırlar.

Azərbaycan gənci daim döyüş meydanlarında, zəfərlərdə böyümüş, inkişaf etmişdir. Onlar böyük elmi ixtiraları, kəşfləri ilə dünya sivilizasiyasına öz möhürlərini vurmuşlar. Bu gün böyük iftixarla demək olar ki, müasir Azərbaycan gəncliyi tarixi kökdən, gendən gələn milli-mənəvi dəyərlərimizi, doğma ana dilimizi, ata-babalardan miras qalan adət-ənənələrimizi göz bəbəyi kimi qoruyub yaşadır. Azərbaycan tarixinin hər bir mərhələsində aparıcı sosial-siyasi qüvvəyə çevrilən gənclər müstəqilliyin qorunub saxlanması, möhkəmləndirilməsi və dövlətçiliyin inkişaf etdirilməsi prosesində də yaxından iştirak edərək tarixi nailiyyətlər qazanırlar. Azərbaycan gəncləri öz həyatlarını qurarkən öncə Vətəninin, doğma yurdunun bu günü və gələcəyi haqqında düşünür, öz fəaliyyətlərində yüksək vətəndaşlıq hisslərinə malik olduğunu nümayiş etdirirlər. Buna gənclərin yüksək potensialı, əldə etdikləri elmi bilikləri, güclü vətənpərvərlik hissləri tam imkan verir.



Ulu Öndər Heydər Əliyev respublikamıza rəhbərliyə gəldiyi ilk günlərdən elmin inkişaf etdirilməsi ilə bağlı məsələlərə xüsusi diqqət yetirmiş, qayğı göstərmiş, bu sahənin sürətli inkişafı üçün mühüm qərarlar vermişdir. Bu diqqət və qayğı nəticəsində elmi-tədqiqat institutlarının və elmi işçilərin sayı artmış, Elmlər Akademiyasının maddi-texniki bazası möhkəmlənmiş, elmi-tədqiqat institutları üçün yeni korpuslar tikilmiş, xüsusi təyinatlı layihə-konstruktor büroları yaradılmışdır. Azərbaycan elminin ölkədə və dünyada tanıtdırılmasına səy göstərilmiş, elmi-tədqiqat işlərinin səviyyəsi yüksəlmiş, elmin tətbiq sahələri genişlənmiş, elm adamlarına yaradıcılıq şəraiti yaradılmış, görkəmli alimlərin fəaliyyətləri təqdir olunmuş, onlar mükafatlandırılmışlar. Azərbaycan dili, ədəbiyyatı və tarixi üzrə aparılan tədqiqatların genişləndirilməsinə xüsusi fikir verilmişdir. Bir faktı qeyd edək ki, 1978-ci ildə elmi-tədqiqat, layihə və sahə institutlarının sayı 118-ə, elmi işçilərin sayı 21407 nəfərə, akademik və müxbir üzvlər 100 nəfərə, elmlər doktorları 853, elmlər namizədlərinin sayı 7594 nəfərə çatmışdır.

Ulu Öndər Heydər Əliyevin müdrikliklə müəyyən etdiyi və həyata keçirdiyi elm siyasəti bu gün ölkə Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Dövlət başçısı çıxışlarında mütəmadi olaraq gənclərin ictimai-siyasi və humanitar proseslərdə göstərdiyi səyləri nəzərə alaraq onları novator, yeniliyə can atan və vətənpərvər insanlar kimi dəyərləndirir. Həqiqətən də, dövlətin gənclər üçün yaratdığı geniş imkanlar onları cəmiyyətin avanqard qüvvəsinə çevirir. Üstəlik, gənc nəsil özünün intellektual potensialı ilə Azərbaycanı beynəlxalq müstəvidə daha əzmlə təmsil etmək üçün qətiyyət göstərməkdədir.

Çox sevindirici haldır ki, bu gün bizim gənclik azad düşünür, demokratik cəmiyyətdə yaşayır, məhdudiyyətsiz olaraq fəaliyyət göstərir. "2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası" uğurla icra olunur. Dövlətimiz qloballaşma əsrində dünya elminə, təhsilinə inteqrasiyanı vacib sayaraq azərbaycanlı gənclərin xaricdə təhsil almasına ciddi əhəmiyyət verir. Bunda məqsəd yeni düşüncəli, kreativ ruhlu gənclik yetişdirmək, dövlət idarəçiliyini yüksəkixtisaslı kadrlarla təmin etməkdir.

AMEA-nın akademik Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun ölkədə yüksəkixtisaslı elmi-pedaqoji kadrların hazırlanmasında xüsusi payı var. İnstitut ötən onilliklərdə böyük inkişaf yolu keçmiş, zəngin ənənələri olan elm müəssisəsi kimi tanınmışdır. Çoxillik fəaliyyəti dövründə Şərqşünaslıq İnstitutu yalnız respublikamız üçün deyil, qonşu Gürcüstan, İran, Körfəz Ərəb ölkələri, Mərkəzi Asiya respublikaları və digər ölkələr üçün də yüksəkixtisaslı müəllim və elmi kadr hazırlığı prosesini uğurla həyata keçirmişdir.

Bu gün institutumuzda Azərbaycan Respublikasının elm siyasətinin sistemli şəkildə həyata keçirilməsində, səmərəli, aktual və ölkəmiz üçün əhəmiyyət kəsb edən elmi tədqiqatların aparılmasında, eyni zamanda gənc elmi kadrların hazırlanmasında böyük işlər görülür. Burada gənc əməkdaşların püxtələşməsi, təcrübə toplaması və inkişafı üçün böyük imkanlar yaradılmışdır.

44 günlük Vətən müharibəsində Azərbaycan həqiqətlərinin beynəlxalq ictimaiyyətə çatdırılmasında Şərqşünaslıq İnstitutunun əməkdaşları da fəal iştirak etmişdir, vətənimizin haqlı mövqeyini əks etdirən bir çox elmi və publisistik məqalələr ərəb, fars, türk, ingilis və rus dillərinə tərcümə olunaraq beynəlxalq kütləvi informasiya vasitələrində dərc edilmişdir. Vətən müharibəsi dövründə institutun əməkdaşları "BBC-Arabic", "Əl-Arabiyyə", "Əl-Hurra", "Əl-Məyadin" və digər ərəbdilli nüfuzlu media orqanlarına altmışdan çox müsahibələr vermiş, Qarabağ münaqişəsi ilə bağlı dövlətimizin maraqlarını təmin edən zəruri məlumatları geniş izləyici kütləsinə çatdırmışdır.

Həyatımızın sürətlə dəyişməsi, inkişaf etməsi qarşımıza yeni tələblər və çağırışlar qoyur. Biz qarşımızda dayanan bütün vəzifələrin uğurlu həllinə məsuliyyət hissilə yanaşmaqla bərabər, möhkəm nizam-intizamla, o cümlədən peşəkarlıq sayəsində nail ola bilərik. Yüksəksəviyyəli elmi kadrların hazırlanması, cəmiyyətdə müəllim peşəsinin nüfuzunun yüksəldilməsi, bilik və bacarıqların, peşəkarlıq səviyyələrinin yaxşılaşdırılması və bütövlükdə ölkəmizdə insan kapitalının formalaşması üçün əzmlə çalışmalıyıq. Yalnız bu halda strateji hədəflərimizə, ali məqsədlərimizə çata bilərik.

*Elnur MUSTAFAYEV,*
*AMEA-nın akademik Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun Din və ictimai fikir şöbəsinin müdiri, Gənc Alim və Mütəxəssislər Şurasının sədri*

● İstedadlar

## Amerikadan qızıl medalla qayıtdı

**İlk dəfə onu görəndə Amerikada keçirilən olimpiadadan yenicə qayıtmışdı. Təhsil aldığı məktəbin müəllim kollektivi, sinif yoldaşları, dostları onu sevinclə qarşılayıb, gül-çiçəyə bülənd etmişdilər. Güllərin arasından zərif bir çiçək kimi boylanan Qəndab "Uğurlarım üçün ilk növbədə müəllimlərimə borcluyam. Bu tək mənim yox, məktəbimizin, valideynlərimin bütövlükdə Azərbaycanımızın uğurudur", - dedi.**

Sadə, zərif, istiqanlı və olduqca səmimi olan bu gənc qızın içində Azərbaycan boyda bir vətən sevgisi olduğunu duymamaq mümkün deyil. İstedadı, biliyi, zəkası ilə Azərbaycanı dünyaya tanıtdıran Qəndab Məmmədova ilə bir qədər yaxından tanış olaq.



Q.Məmmədova Bakı şəhər 279 saylı məktəbin 11-ci sinif şagirdidir. O, kiçik yaşlarından öyrənməyə və hansısa problemi həll etməyə daha çox meyilli olub. Fizika, astronomiya, riyaziyyat fənlərinə, eləcə də proqramlaşdırma dillərinə böyük həvəs göstərib. O, 9-cu sinifdə ilk dəfə respublika olimpiadasında fizika fənni üzrə qalib oldu. Fizika fənni üzrə olimpiadada iştirak edən qızların sayı az olsa da, həvəsdən düşmədi, hətta bu, onun üçün bir stimula çevrildi. Qəndab deyir ki, elmdə zəriflik olmur, zəiflik olur. Böyük amallar uğrunda çalışırsansa, zəif olmamalısan. Nəticədə 10-cu sinifdə yenə respublikada riyaziyyat-fizika olimpiadasında (fizika fənni üzrə) gümüş medala sahibləndim. Getdikcə maraq dairəm məni astronomiyaya apardı. Elə həmin il respublika astronomiya olimpiadasından qızıl medal alaraq İOAA-da (Beynəlxalq Astronomiya və Astrofizika Olimpiadasında) Azərbaycanı təmsil edən 5 üzvdən biri oldum. Daha sonra İPHO 2022-ə (Beynəxalq Fizika Olimpiadasına) seçilən ilk azərbaycanlı qız olaraq daha bir uğura imza atdım.

Qəndab öz üzərində çalışmağı çox sevir. Deyir ki, fizika ilə astronomiya bir ailənin iki üzvü kimi doğma elmlərdir. Bunları yaxşı bilənin üzünə elmin gücü ilə digər qapıları da açmaq olur. Elə Qəndab da bekar durmayıb. Olimpiadada qızıl medala sahib olandan sonra həmin ilin yayında əlavə məşğuliyyət kimi c++ proqramlaşdırma dilini öyrənməyə başlayıb.

İnsana xas olan bir çox şey fərdidirsə, elm fərdi deyil. Gərək ondan bəhrələnib xalqına, vətəninə pay verəsən. Elmin nuru ilə işıq salmağı bacarasan. Elə bu məqsədlə də fizikanı geniş auditoriyada uşaqlara sevdirmək üçün "Gələcəyin dahiləri" layihəsi adı altında yutub kanalında fizikaya aid olimpiada suallarının izahlı həllərini paylaşmağa başlayır. Hazırda həmin kanalı (Qəndab & Mehdi) qardaşı Mehdi ilə birlikdə idarə edir. Məqsəd şagirdlərdə texniki fənlərə qarşı marağın artırılması və hər bir azərbaycanlı şagirdə olimpiada dərslərini əlçatan etməkdir.

Qəndab Məmmədovanın son iştirak etdiyi olimpiada ABŞ-nin Texas ştatı, Hyuston şəhərində Rice Universitetində təşkil olunmuş Global Copernicus Olympiad Amerika olub. Xatırladaq ki, bu mötəbər olimpiadada ölkəmizin yeganə təmsilçisi də Qəndab olub. O deyir ki, olimpiada müddətində NASA və Rice University kimi dünyaca məşhur məkanları görmək, fərqli mədəniyyətlərlə yaxından tanış olmaq, düşünürəm ki, mənə çox şey verdi. Bir həftə ərzində çox təcrübə qazandım, sonda fizika və astronomiya fənləri üzrə imtahan verərək dünya üzrə öz kateqoriyamda top 3-lüyə (1-ci yer) düşərək qızıl medala layiq görüldüm. Doğrusu, bunu öyrəndiyim an Vətənim üçün az da olsa nə isə etdiyimə görə özümü çox xoşbəxt hiss etdim. İndi düşünürəm ki, əsl uğurlu insan daim araşdıran, sahəsinə sonsuz məhəbbəti olan və hər zaman hər andan faydalanan, axtarışda olan insanlardır. Məqsəd bircə dəfə nəyi isə əldə etməkdirsə, onun üçün min dəfə cəhd etməkdən qorxmamalıyıq!

Qızıl medal mükafatçısı Qəndab Məmmədova bizimlə söhbətində gələcək planlarından da danışdı: "Hazırda "Gələcəyin dahiləri" layihəsinin inkişafı üçün çalışıram. Eyni zamanda İT sahəsində də müxtəlif layihələrə müraciət edirəm. Bu yaxınlarda Baku American Center-in keçirdiyi "Gələcəyini Proqramlaşdır" proqramı çərçivəsində müraciət etdiyim layihədən müsbət cavab alaraq ödənişsiz dərslərə qoşulmaq imkanı qazanmışam. Onu da deyim ki, "Azercosmos"un dəstəyi ilə Azərbaycanda ilk dəfə keçirilən "Space Generation"a spiker olaraq dəvət olunmuşam. Bundan sonra isə hər il beynəlxalq səviyyədə keçirilən, bu il isə Bakıda baş tutacaq NASA, SpaceX kimi şirkətlərin iştirak etdiyi İAC-ə (Beynəlxalq Astronovtika Konqresinə) abstrakt 95 ölkədən 3532 məqalə arasından seçilmiş yazımıza görə dəvət almışıq. İndi atdığımız addımlar gələcəkdə bizim kim olacağımızı müəyyənləşdirir, bu səbəbdən daim "öyrədərək öyrənmək"dir məqsədim".

Qəndabın uğurlarına sevinməmək olmur. Hiss edirik ki, bu, hələ uğurların başlanğıcdır. Ümid edirik ki, daha çox yazılacaq səhifələr hələ qarşıdadır.

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*

● Sabahın qurucuları

## Ürəkləri böyük arzularla dolu gənclər

**İlk dəfə onları Türkiyədə zəlzələdən zərərçəkənlərə yardım kampaniyası zamanı Bakı Əl Oyunları Sarayında görmüşdüm. Çalışqanlıqları, davranışları, insanlarla xoş ünsiyyət qurmaq qabiliyyətləri ilə tamamilə fərqlənirdilər. El yardımı gətirənlərə xüsusi diqqət və həssaslıqla yanaşan bu iki gənc həm də bir-birinə olan doğma münasibətləri ilə də seçilirdilər. O zaman Kamranla İmkanın doğma qardaş olduğunu zənn etmişdik.**





Növbəti dəfə bizi Bakı Dövlət Universitetinin nəzdində İqtisadiyyat və Humanitar kollecdə "Heydər Əliyev İli" çərçivəsində keçirilən tədbirdə qarşılayan yenə də Kamranla İmkan oldu. Öyrənirik ki, Kamran təhsil aldığı kollecin Yaradıcılıq Mərkəzinin rəhbəridir. Bu mərkəz tələbələrin bilik və bacarıqlarının inkişaf etdirilməsi, eləcə də dünyagörüşünün artırılması məqsədi ilə yaradılıb. İmkan isə dərs əlaçısıdır, təhsil aldığı humanitar kollecin ictimai fəalıdır. Hər iki gənc Azərbaycan Könüllülər İttifaqının üzvüdür. Onlar məktəbdə keçirilən tədbirin də əsas təşkilatçılarıdırlar.

Söhbət zamanı öyrəndik ki, Kamran Eyubov Bakı şəhərində anadan olub. Nərimanov rayonunda 178 nömrəli məktəbdə 9-cu sinfi bitirdikdən sonra Bakı Dövlət Universitetinin nəzdində İqtisadiyyat və Humanitar Kollecinə daxil olub. Hazırda maliyyə ixtisası üzrə üçüncü kursda oxuyur. Kamran deyir ki, kiçik yaşlarından ictimai işlərə maraq göstərir: "Valideynlərim məni yeniyetmələrin yaradıcılıq mərkəzində keçirilən tədbirlərə aparırdılar. Məktəbdə oxuduğum müddətdə Uşaq Gənclər İnkişaf Mərkəzinin keçirdiyi bütün tədbirlərdə yaxından iştirak edirdim. Məktəbin 9-cu sinfini bitirdikdən sonra kollecə daxil olmaq qərarına gəldim".

Kamran əlavə edir ki, kollecə daxil olmaqda əsas məqsədim yaşıdlarımdan daha tez ictimai həyata atılmaq olub. Çalışacağam ki, tələbə həyatının bütün mərhələlərindən keçim. Qarşıda kollecdən magistraturaya qədər gedəcək bir yol var. Belə düşünürəm ki, yaşıdlarım universitetin birinci kursunda oxuyanda mən artıq onlardan tələbəlik təcrübəsi daha çox fərqlənən biri olacağam. Bu, həm də mənim dünyagörüşümün formalaşmasında və bacarığımın inkişaf etməsində istisna rol alacaq.

Kamran bir yerdə dayanmağı sevmir. Daim axtarış və fəaliyyətdədir. Hamı onu ictimai fəal kimi tanıyır. Abşeron Rayon İcra Hakimiyyəti yanında ictima şuranın könüllüsüdür. Gənclər Fondu, eyni zamanda Gənclər və İdman Nazirliyinin təşkil etdiyi Ulu Öndər Heydər Əliyev "Azərbaycan deyəndə…" gənclər konfransında Abşeron rayonunu təmsil edib. Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Ulu Öndər Heydər Əliyevin yubileyinə həsr etdiyi respublika ifa müsabiqəsində şeir nominasiyası üzrə ilk yerlərdən birini tutub. İctimai fəaliyyətinə görə, dəfələrlə fəxri fərmanlara layiq görülüb. Gələcək planlarından danışan Kamran Eyubov deyir ki, ən böyük arzum layiqli vətəndaş olmaq, vətənimə ləyaqətlə xidmət etməkdir. Çalışıram ki, ali təhsilimi Bakı Dövlət Universitetinin İqtisadiyyat fakültəsində davam etdirim. İstəyirəm ki, YAP-a üzv qəbul olaraq ölkəmizin ictimai-siyasi həyatında daha yaxından iştirak edim.

Söhbətimizi Bakı Dövlət Universitetinin nəzdində İqtisadiyyat və Humanitar kollecin digər tələbəsi İmkan Bayramov ilə davam etdiririk. İmkan Quba rayonunun Zizik kəndində ziyalı ailəsində anadan olub. Kollecdə biliyi, bacarığı ilə seçilən ictimai fəallardandır. Təhsil aldığı məktəbdə hamı onu informasiya texnologiyası üzrə mütəxəssis kimi tanıyır. İctimai fəaliyyəti ilə seçilən İmkan dəfələrlə təhsil aldığı məktəb tərəfindən xüsusi sertifikata layiq görülüb. O, informasiya texnologiyası üzrə beynəlxalq sertifikat da alıb.

İmkan deyir ki, insan gərək biliyi, bacarığı ilə vətəninə, dövlətinə xidmət etsin: "Çalışıram ki, dövlətimiz üçün əsl vətəndaş olum. Valideynlərimin, müəllimlərimin etimadını doğruldum. Təkcə valideynlərimin yox, həm də vətənimin oğlu ola bilim. İnsan çalışanda arzularını reallaşdıra bilir. Sevinirəm ki, həyatda ilk uğurlu debütümü etmişəm. Mayın 11-də 7 saylı Bakı "ASAN xidmət" mərkəzində "Kiber cinəyatkarlığa Qarşı Mübarizə" adlı təlim toplantısı keçirdim".

İmkanın incəsənət sahəsinə də böyük marağı var. Bu yaxınlarda ADA Universitetindən rəqslə bağlı təklif alıb, orada keçirilən tədbirin fəal iştirakçısı olub.

Kolleci bitirdikdən sonra Bakı Dövlət Universitetinin İqtisadiyyat fakültəsində təhsil almaq niyyətindədir. YAP-a üzv olmağı da qərarlaşdırıb. İmkan fürsətdən istifadə edib Ulu Öndər Heydər Əliyevin təməlini qoyduğu gənclər siyasətini layiqincə davam etdirən Prezident İlham Əliyevə gənclərə ayırdığı diqqət üçün təşəkkür etməyi də unutmadı.

Ürəkləri arzularla dolu gəncləri dinlədikcə Azərbaycanın işıqlı sabahını görüb sevinməmək olmur. Onlar vətən üçün çalışan layiqli gənclərimizdir.

*E.QƏNİYEV,*
*"Azərbaycan"*

# Dünya olduğu kimi

## Rembrandtın əsərləri 200 il sonra üzə çıxıb

**Məşhur holland rəssamı Rembrandtın 2 əsəri 200 ildən sonra tapılıb.**

Bu nadir tablolar indiyədək Böyük Britaniyada yaşayan bir ailənin şəxsi kolleksiyasında yer alıb. Tədqiqatlar nəticəsində əsərlərin orijinal olduğu müəyyən edilib.

XVII əsrə aid olan əsərlər Nyu York və Amsterdamda nümayiş etdirildikdən sonra iyulun 6-da Londonda hərrac salonlarında satışa çıxarılacaq.

## Planetimizin üzərindəki təhlükə

**Tədqiqatlar nəticəsində məlum olub ki, Yerin orbitindəki NASA-nın, həmçinin Çin və Rusiyanın peyk və raket hissələri, hətta ötən əsrdən qalmış keçmiş SSRİ-nin kosmik zondlarının parçaları fəlakətə səbəb ola bilər. Alimlər bu qırıntıları "saatlı bomba" adlandıraraq iddia ediblər ki, onlar hər an planetimizin üzərinə düşə bilər.**



ABŞ-nin "LeoLabs" texnologiya şirkətinin ekspertləri qeyd ediblər ki, 75 ildir kosmosa göndərilən gəmi, peyk və aparatların qalıqları artıq orbitin ətrafında tıxac yaradıb. Son illər amerikalı milyarderlər İlon Maskın və Ceff Bezosun kosmik fəzaya göndərdikləri peyklər vəziyyəti daha da ağırlaşdırıb. Yerin aşağı orbitini izləmək üçün Alyaska, Texas, Yeni Zelandiya və Kosta-Rikada radarlar quraşdıran "LeoLabs"ın mütəxəssisləri müəyyən ediblər ki, kosmik tullantıların böyük bir hissəsi, yəni 8 min 497 tullantı ABŞ-yə məxsusdur. Sonrakı yerlərdə Rusiya və Çin gəlir. Bu ölkələrin hər birinin kosmik fəzada 4 mindən çox tullantısı mövcuddur.

Alimlər xəbərdarlıq ediblər ki, getdikcə artan kosmik tullantılar bir-biri ilə çarpışaraq partlaya və Yerə düşərək insanlara zərər verə bilər. Bu məsələ kosmosa raket və peyk göndərən ölkələr tərəfindən müzakirə edilməli və müvafiq tədbirlər görülməlidir.

## Adriatik dənizində qədim daş yol aşkar edilib



**Arxeoloqlar araşdırmalar nəticəsində Adriatik dənizinin dibində qədim daş yol aşkar ediblər.**

Alimlər yaşı yeddi min ildən çox olan bu yolun Neolit dövrünə aid olduğunu hesab edirlər. Onun Korcula adasından Xorvatiyanın materik ərazisinə apardığı və nəticədə dəniz səviyyəsinin qalxması səbəbindən su altında qaldığı ehtimal edilir. Son buz dövrünə qədər Korcula adası da materikin bir hissəsi idi.

Eni dörd metr olan yol suyun səthindən 4,9 metr aşağıda yerləşir. Onun Hvar mədəniyyətinin nümayəndələri tərəfindən tikildiyi güman edilir. Sualtı yol peyk görüntüləri vasitəsilə aşkar edilib. Alimlər hazırda yolun hara getdiyini dəqiqləşdirməyə çalışırlar.

## Dünyanın ilk elektrikli yolu

**İsveç 2035-ci ilə qədər elektrikli yollar inşa edəcək. Yolun inşası 2025-ci ildə başlayacaq və ümumi uzunluğu 3 min kilometr olacaq.**



Bu yol sürücülərə elektrikli avtomobillərini hərəkət etdiyi müddətdə enerji doldura bilmələrinə imkan verəcək. Yeni texnologiya elektrikli avtomobilləri hərəkət etmədikdə belə enerji ilə dolduracaq.

Bu proses üçün yolun altına metal rulonlar düzüləcək. Bu rulonlar maqnit tezliyini nəqliyyat vasitələrinin altında yerləşən xüsusi qəbuledicilərə ötürəcək.

Bu texnologiyanın tezliklə ABŞ yollarında istifadə olunacağı bildirilib.

## "Mona Liza" ilə bağlı yeni iddia

**Dünyanın ən məşhur əsərlərindən biri hesab edilən Leonardo Da Vinçinin XVI əsrə aid "Mona Liza" tablosu ilə bağlı yeni məlumat əldə edilib. Rəsmin fonunda olan körpünün Arezzo əyaləti sərhədləri daxilində, Laterniyadakı Romito körpüsü olduğu irəli sürülüb.**



Tarixçi Silvano Vincenti tərəfindən koordinasiya edilən araşdırmanın nəticələri Romanın Xarici Mətbuat Birliyində təşkil edilən mətbuat konfransında açıqlanıb.

İtalyan tədqiqatçı sözügedən körpünün Arezzo, Fiesole və Florensiya arasındakı səyahəti qısaltdığı üçün 16-cı əsrdə çox aktiv istifadə edilən bir körpü olduğunu və bunun o dövrün Florensiya Dövlət Arxivindəki sənədlərdə də əksini tapdığını bildirib.

Əvvəllər sözügedən körpünün orta əsrlərə aid olduğu iddia edilirdi.

Qeyd etmək lazımdır ki, intibah dövrü tablosu olan "Mona Liza" Fransanın Luvr muzeyində nümayiş etdirilir.

## Qədim məbədin qalıqlarına rast gəlinib

**Arxeoloqlar bir vaxtlar İtaliyada ticarət limanı olan Puteolinin ürəyi hesab edilən məbədin su altında qalmış qalıqlarını aşkar ediblər.**

Qalıqlar məbədin iki qurbangahına aiddir. Tədqiqatçılar məbəd qalıqlarının eramızın I əsrinin birinci yarısına aid olduğunu ehtimal edirlər.

Yeni tapıntıların 1965-ci ildə eyni yerdə tapılmış daha böyük qurbangaha bənzədiyi bildirilir. Alimlər dənizin dibi boyunca başqa qalıqların ola biləcəyini də düşünürlər.

Məbədin mövcudluğu uzun müddət məlum olsa da, arxeoloqlar hələ də onun yerini dəqiq müəyyən edə bilməyiblər. Bu kəşfdən sonra tədqiqatçıların məbədin harada yerləşdiyini öyrənmələrinə imkan yaranacağı qənaəti formalaşıb.

## 120 ilə qədər yaşamaq mümkün olacaq

**ABŞ alimləri uzunömürlülüyün sirrinin superimmun sistemində və aktiv genlərdə olduğunu tapıblar.**

Araşdırmalar nəticəsində müəyyən edilib ki, infeksiyalara müqavimət göstərmək qabiliyyəti insanların 100 və daha çox yaşamasına kömək edir. Onlar bu nəticəyə 100-119 yaş arasında olan 14 uzunömürlü insanın DNT-sini tədqiq edərək gəliblər.

Tədqiqat zamanı alimlər uzunömürlü insanlarda DNT-nin bərpasında iştirak edən "STK17A" və infeksiyalarla mübarizə üçün lazım olan antigenləri yaradan "HLA-DPA1" aktiv genlərini aşkarlayıblar.

Qeyd etmək lazımdır ki, BMT-nin hesablamalarına görə, 2050-ci ilə qədər dünyada 3,7 milyon uzunömürlü insan olacaq. Ehtimal edilir ki, bu uzunömürlü insanların əksəriyyəti Çin və Yaponiyanın payına düşəcək.

## "İliada"da adı çəkilən qəhrəmanın mozaikası Türkiyədə tapılıb

**Osmaniyədə bir tikintinin bünövrə qazıntısı zamanı Qədim Roma dövrünə aid iqamətgah qalıqlarına aid mozaika tapılıb. Mozaikanın üzərində Homerin "İliada" dastanında da adı çəkilən Troya müharibəsi qəhrəmanı "Aeinas"ın rəsmi var. Dünyada bunun daha bir nümunəsi yoxdur.**



Bu qalıqlar 2015-ci ildə aşkar edilsə də, onun tarixi haqqında dəqiq məlumatı tədqiqatçılar indi əldə ediblər. Arxeoloq və tarixçi Cezmi Yurtsevər bildirir ki, qazıntılar zamanı tapılan mozaikanın üzərində ov səhnəsi təsvir edilib. Təsvirdə əlində mizraqla şir ovuna çıxan atlı bir savaşçı var. Burada atın tərkində qadın da görünür. Qadının adı mənbələrdə Dido olaraq keçir.

Tarixçi onu da qeyd edir ki, tapıntıların Osmaniyədə aşkarlanması təəccüblü deyil. Belə ki, bura romalılar dövründə Flaviolis şəhəri idi.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*

## Uranın peyklərində okean suları ola bilər

**Yeni araşdırmaya görə, NASA-nın "Voyager" kosmik gəmisi tərəfindən toplanan məlumatlar Uranın beş ən böyük peykindən dördünün içərisində okean sularının ola biləcəyini ortaya çıxarıb.**



NASA əvvəllər hesab edirdi ki, Uranın beş ən böyük peyki olan Ariel, Ambriel, Titaniya, Oberon və Mirandanın daxilində okean suları olsa belə, onlar donmamaq üçün istiliyi etibarlı şəkildə saxlamağa qadir deyillər.

Qeyd etmək lazımdır ki, Uranın, ümumilikdə, 27 peyki var.


# OXUCULARIN NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN" qəzetinə abunə yazılışı davam edir!**

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | (012) 598-49-55, (051) 225-02-13 |
| *"Azərmətbuatyayımı" ASC* | (012) 441-19-91, (050) 322-33-17 |
| *"Qaya" firması* | (012) 566-77-80, (050) 214-40-53 |
| *"Region Press" MMC* | (055) 316-79-01, (050) 316-79-01 |
| *"Səma-M" MMC* | (012) 594-09-59 |
| *"Ziya" LTD* | (012) 497-76-96, (050) 306-77-22 |
| *"Pressinform" MMC* | (012) 598-49-52, (070) 340-01-00 |
| *"City press" MMC* | (055) 819-09-26 |




**1 illik -124,80** (yüz iyirmi dörd manat səksən qəpik) **manat**
**6 aylıq - 62,40** (altmış iki manat qırx qəpik) **manat**
**3 aylıq - 31,20** (otuz bir manat iyirmi qəpik) **manat**

**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya **(Tel.: (012) 539-59-33)** zəng vura bilərsiniz.*




# Möhtəşəm mübarizə

## Bakı Avropa gimnastikasının mərkəzinə çevrilib

**Digər idman növləri ilə yanaşı, gimnastika da ölkəmizdə kifayət qədər populyarlığa malikdir. Son illər idmanın bu növü sürətlə inkişaf edir. Onun bütün növlərində gözəllik, güc, incəsənət bir-birini tamamlayır. İdmançının hansı alətdə çıxış etməsindən və ya sərbəst hərəkətləri yerinə yetirməsindən asılı olmayaraq, tamaşaçı böyük zövq alır, insanın yaratdığı möcüzə qarşısında heyrətə gəlir.**











Yüksək səviyyədə dövlət qayğısı sayəsində bu gün Azərbaycan dünyanın idman mərkəzlərindən birinə çevrilib. Digər idman növləri ilə yanaşı, gimnastika da diqqətdən kənarda qalmayıb. Bu nailiyyətlər Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın federasiyaya rəhbərliyi sayəsində mümkün olub. Başqa sözlə, 2002-ci ildən Azərbaycan Gimnastika Federasiyasının prezidenti olan Mehriban xanım Əliyevanın fəaliyyəti nəticəsində ölkədə idmanın bu növünün əsl inkişaf mərhələsi başlanıb.

Gimnastikanın bütün növlərinin, maddi-texniki bazasının gücləndirilməsi, bu idman növünün kütləviləşməsi istiqamətində görülən işlər öz bəhrəsini verməkdədir. Dünyanın ən nüfuzlu gimnastika yarışlarına Bakı uğurla evsahibliyi edir. Belə mötəbər turnirlərdən biri də paytaxtımızda təşkil edilən bədii gimnastika üzrə 39-cu Avropa Çempionatıdır. "Ulduz kimi parla" şüarı ilə keçirilən qitə çempionatında 38 ölkədən 315 gimnast (böyüklər - 191, gənclər 124) mübarizə aparır. Fərdi gimnastlar ayrı-ayrı alətlər (top, halqa, gürzlər, lent), komanda hesabı və çoxnövçülük proqramında çıxış edirlər. Qrup hərəkətləri üzrə komandalar böyüklər arasında beş halqa, üç lent və iki top ilə yarışlarda güclərini sınayırlar. Artıq Azərbaycan yığmasının aktivində çoxnövçülük və beş topla hərəkət proqramında iki bürünc medal var. Medalları qrup hərəkətlərində Gövhər İbrahimova, Səkinəxanım İsmayılzadə, Mədinə Aslanova, İlahə Bahadırova, Ayan Sadıqova və Zəhra Cəfərovadan ibarət gənclər komandası qazanıb.



Dünən çempionatın dördüncü günündə gimnastlar fərdi və qrup hərəkətləri proqramında mübarizə aparıblar. Yarışda ölkəmizi fərdi növdə Zöhrə Ağamirova təmsil edib. Gimnastlar fərdi proqramda çoxnövçülük üzrə öz aralarında qalibi müəyyən ediblər. Böyüklərdən ibarət qrup komandalar isə 5 top, 3 lent və 2 topla təsnifat yarışında mübarizə aparıblar. Bədii gimnastımız Zöhrə Ağamirova çoxnövçülükdə dörd alət ilə çıxışını təqdim edib. O, lent ilə çıxışına görə 29,800, halqa ilə proqramına görə 29,650, topla hərəkətlərdə 31,300 və gürzlərlə isə yarışına görə 31,650 xal alıb. Hesabında 122,400 xal olan gimnastımız 7-ci pillədə qərarlaşıb. Bolqarıstanı təmsil edən idmançı Boryana Kaleyn fərdi çoxnövçülük proqramında 131,000 xal toplayaraq qızıl medal qazanıb. İtaliyalı Sofiya Raffaeli 129,550 xalla gümüş, Bolqarıstan təmsilçisi Stilyana Nikolova isə 129,500 xalla bürünc mükafata yiyələnib.

Azərbaycanın Ləman Əlimuradova, Güllü Ağalarzadə, Danya Sorokina, Zeynəb Hümmətova, Kamilla Əliyeva və Yelizaveta Luzandan ibarət qrup komandası üç lent və iki topla hərəkətlərə görə 32,500 xal qazanıb. Bu bütün komandalar arasında ən yüksək qiymət idi. Beş halqa ilə hərəkətlərə görə isə komandamız 32,900 xal alıb. Beləliklə iki hərəkətin cəminə görə 65,400 xal alan komandamız bürünc medala layiq görülüb və iki finala vəsiqə qazanıb.

Yarışlara bu gün yekun vurulacaq.

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

**"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir**

**Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır**

**Gündəlik rəsmi dövlət qəzeti**

**Tiraj 5792**
**Sifariş 1228**

**Qiyməti 40 qəpik**